Azərbaycan Universitetinin nəşri

# ÇAĞLAYAN

2022/1 (10)

www.au.edu.az



Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa,
Biz səni dirçəldəcəyik!
Şuşa bizimdir!
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev**
**Bakı, 8 noyabr 2020-ci il**

Şuşa şəhəri mənim tərəfimdən
Azərbaycanın mədəniyyət
paytaxtı elan edildi.
Şuşa şəhərinin bərpası
və tarixi simasının özünə
qaytarılması istiqamətində
işlərə start verildi.

**Prezident İlham Əliyev**
**Şuşa, 14 yanvar 2021-ci il**

Bu şanlı tarix bizimlə
əbədi olacaq.
Azərbaycan xalqı,
gələcək nəsillər
bu şanlı Qələbə ilə
haqlı olaraq fəxr edəcəklər.

**Prezident İlham Əliyev**
**Şuşa, 8 noyabr 2022-ci il**


Məzun Günü
2022
#AUMəzun2022
məzun günü
məzun günü
məzun günü
Azərbaycan
Universiteti
XXVIII buraxılış
Məzun Günü
məzun günü
Azərbaycan
Universiteti
XXVIII buraxılış
Məzun Günü
#AUMəzun2
view all comment
məzun günü

# MƏZUN 2022



# ÇAĞLAYAN

**Təsisçi və baş redaktor**

Azərbaycan Universitetinin rektoru
Səadət Əliyeva

**Redaksiya heyəti**

Yusif Qasımov
Nüşabə Quliyeva
Ülviyyə Rəhimova
Qabil Əliyev
Səfər Məmmədov
Asif Paşayev
Samirə Məmmədova
Tünzalə Verdiyeva
Nəriman Böyükkişi

**Dizayner və fotoqraf**

Elxan Fərzəliyev

**Assistentlər**

Ayşən Hüseynova
Ramazan Musayev

**İcraçı redaktor**

Lalə Dilənova

"Çağlayan" jurnalı
Azərbaycan Universiteti tərəfindən nəşr olunur.
(Ədliyyə Nazirliyinin reyestr nömrəsi 4138; 13.10.2017)

AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu
Ceyhun Hacıbəyli küçəsi, 71
Tel: (+994 12) 431 41 12 /13/16
www.au.edu.az

# İçindəkilər


8 Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

9 Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa səfərləri

12 Şuşa ili

16 Universitet xəbərləri

24 Beynəlxalq əlaqələr

26 Elmi fəaliyyət

31 Yeni kitablar

38 270 illik şah əsər: Şuşa

49 Prof. Asif Hacıyev
Şuşanın ədəbi məclisləri

54 Ali təhsildə keyfiyyət təminatının rolu və dəyərləri

56 Tələbə həyatı

63 Ali məktəblərə qəbul qaydalarında yenilik

65 Məzunlarımız: Fərid Məmmədov
Asif Əbdüləzimov




# ŞUŞA İLİ
# 2022



# Redaksiyadan

Hörmətli oxucular,
"Çağlayan" jurnalının 10-cu sayında hər birinizi xoş gördük. Artıq 2 ildir ki, xalqımız tarixinin ən şərəfli, ən qürurlu, ən sevincli dövrünü yaşayır, Azərbaycan əsgərinin şücaəti, şəhidlərimizin və qazilərimizin qanı-canı bahasına işğaldan azad olunan torpaqlarımızda qurub-yaratmaq, dirçəltmək əzmini nümayiş etdirir. Necə ki, ulu Dədə Qorqud deyirdi: "Torpağı qorumasan əkməyə dəyməz, əkməsən qorumağa dəyməz".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına etdiyi müraciətində 2022-ci ili "Şuşa İli" elan etdiyini bildirib, 2022-ci il yanvarın 5-də isə dövlətimizin başçısı "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" Sərəncam imzalayıb. Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbəni iqtisadi, siyasi və diplomatiya müstəvisində daha da möhkəmləndirməyə xidmət edən sərəncama uyğun olaraq Azərbaycan Universitetində də "Şuşa ili Tədbirlər Planı" icra olunur. Tədbirlər planı çərçivəsində jurnalımızın vərəqlədiyiniz bu nömrəsi "Şuşa İli"nə həsr olunub.

"Şuşa: 270 illik şah əsər" yazımız bu müqəddəs şəhər haqqındadır. Yazıda Pənahəli xan Cavanşir tərəfindən Şuşanın əsasının qoyulmasından, keçdiyi inkişaf yolundan, tarixi abidələrindən, görkəmli şəxsiyyətlərindən, erməni işğalının ağır fəsadlarından, Azərbaycan Ordusunun şəhəri işğaldan azad edərkən göstərdiyi misilsiz qəhrəmanlıqdan və son iki ildə burada başlanan nəhəng quruculuq işlərindən bəhs olunur.

Daha bir yazı yetişdirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazan əziz Şuşaya həsr olunub. "Ədəbi məclislər: Məclisi-üns və Məclisi-fəramuşan" adlı yazı Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru Asif Hacıyevin imzasını daşıyır. Yazı, AVCİYA-nın "Şuşa İli"ndə həyata keçirdiyi layihələr çərçivəsində işıq üzü görən "Şuşa: ədəbi-mədəni mühit" kitabından alıntı əsasında hazırlanıb.

Bu sayımızda da hər zaman olduğu kimi Azərbaycan Universitetinin fəaliyyətinə geniş yer verilib. Səhifələrimizdə universitetin həyatında baş verən yeniliklər, yeni əməkdaşlıqlar, görüşlər və tədbirlər işıqlandırılıb. Həmçinin müxtəlif rubrikalarda universitetin elmi və ictimai fəaliyyəti, uğurları, beynəlxalq əlaqələri, tələbə həyatı ilə bağlı maraqlı faktlara rast gələcəksiniz.

Yeni sayımızı da böyük maraq və sevgiylə oxuyacağınızı ümid edirik...



# Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2022-ci il**

# Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa səfərləri və Şuşadakı çıxışları

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev möhtəşəm Qarabağ zəfərindən sonra Şuşaya ilk dəfə 2021-ci ilin yanvar ayında səfər edib. Bu səfərin yanvarın 14-də gerçəkləşməsinin rəmzi mənası var. Düz 39 il əvvəl, 1982-ci ilin 14 yanvar tarixində Şuşada ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş və tədbirdə İlham Əliyev də iştirak etmişdi. Həmin ilin yayında, iyulun 29-dan avqustun 2-dək Qarabağa ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada Vaqif Poeziya Günləri keçirilib və Xurşidbanu Natəvanın abidəsinin açılışı olub. İlham Əliyev birinci səfərdə olduğu kimi, ümummilli liderin yaddaşlarda "Böyük poeziya bayramı" kimi qalan bu səfərində də iştirak edib. Həmin vaxt cənab Prezidentin 21 yaşı vardı. 2021-ci ilin yanvarında Vaqifin ermənilər tərəfindən dağıdılmış məqbərəsi önündə müzəffər ordunun ali baş komandanı kimi çıxış edən cənab Prezidentin nümayiş etdirdiyi şəkil Şuşaya ikinci səfər zamanı çəkilib. Ölkə başçısı çıxışında Şuşanın bərpası, tarixi və mədəni şöhrətinin özünə qaytarılması ilə bağlı görüləcək işlər haqqında da məlumat verib. Bu yazımız cənab prezidentin Şuşaya səfərləri və çıxışlarından alıntılar əsasında hazırlanıb.*



**14.01.2021:** Prezident İlham Əliyev möhtəşəm Qarabağ zəfərindən sonra Şuşaya ilk səfəri zamanı bu əziz şəhərdə üçrəngli bayrağımızı ucaldıb, hərbçilərlə görüşüb. Ermənistan Silahlı Qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən güllə-baran etdiyi Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəllərini Şuşaya qaytaran İlham Əliyevin dilindən soyuq yanvar günündə möcüzə şəhər Şuşa haqqında bu gözəl və səmimi sözləri eşitdik: "Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müstəqilliyimizin təxminən otuz yaşı var. Ancaq bu otuz il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir. Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir".



**20.03.2021:** Prezident İlham Əliyev Şuşada, Cıdır düzündə Novruz tonqalını alovlandırıb və xalqa müraciət edib: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir".



**12.05.2021:** Prezidentin "Xarıbülbül" musiqi festivalının açılışındakı çıxışından: "Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk".



**15.06.2021:** Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb. Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar. Prezidentlər bəyannamənin imzalanmasından sonra mətbuata birgə bəyanatla çıxış ediblər. Cənab prezidentin çıxışından: "Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk".




**30.08.2021:** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər. Prezident İlham Əliyevin açılış mərasimində çıxışından: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq".



**07.11.2021:** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında çıxışından: "Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir".



**24.12.2021:** Azərbaycan Respubilkasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində olublar. Prezident İlham Əliyevin Cıdır düzündəki çıxışından: "Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada – Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir. Amma, eyni zamanda, hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də (doğum gününü – redaktorun qeydi) mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".



**22.04.2022:** Prezident İlham Əliyevin Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayındakı çıxışından: "Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər".



**12.05.2022:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışında iştirak ediblər. Festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar. Üç gün davam edən festival çərçivəsində Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirilib, klassik musiqi əsərləri təqdim olunub.




**27.09.2022:** Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən Müharibəsinin ikinci ildönümündə növbəti dəfə Füzuliyə və Şuşaya səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar. Azərbaycan Prezidenti burada çıxış edib: "... Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır...". Cənab prezident və birinci xanım daha sonra Şuşaya hərəkət edib, burada inşa edilən yeni yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olublar.



**08.11.2022**: Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak ediblər. Dövlətimizin başçısının hərbçilər qarşısında çıxışından: "Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. Bu tarixi gündən cəmi iki il keçib və iki il ərzində bir çox hadisələr baş verib. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq".

## Azərbaycan Universitetində "Şuşa" auditoriyası açılıb



"Şuşa" auditoriyası 2022-ci ilin Azərbaycan Respublikasında "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 2022-ci il tarixli Sərəncamının və Azərbaycan Universitetinin "Şuşa İli" çərçivəsində həyata keçiriləcək tədbirlər planının icrasının təmin edilməsi məqsədilə yaradılıb.
Auditoriyanın açılışı münasibəti ilə təşkil olunan tədbirdə qeyd edilib ki, auditoriyanın açılışı ilə il ərzində Azərbaycan Universitetində keçiriləcək və Şuşanın mədəniyyətinə, tarixinə, görkəmli şəxsiyyətlərinə, strateji əhəmiyyətinə, hazırda orada aparılan bərpa və yenidənqurma işlərinə, turizm potensialına həsr olunacaq tədbirlərin başlanğıcı qoyulur.

## "Şuşanın turizm potensialı" mövzusunda elmi seminar keçirilib

Tədbirdə Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov, Maliyyə və iqtisadiyyat kafedrasının müdiri Nəriman Böyükkişi, kafedranın müəllimi Qəhrəman Yusupovun çıxışları dinlənilib. Çıxışlarda qeyd olunub ki, hazırda Şuşada genişmiqyaslı abadlıq və quruculuq işləri aparılır. Təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi başa çatandan sonra bölgədə turizm infrastrukturu bərpa ediləcək və müasirləşdiriləcək.
Daha sonra Dövlət Turizm Agentliyinin nümayəndələri - Qoruqları idarəetmə mərkəzinin idarə heyətinin sədrinin müşaviri Elşən Mustafayev "Şuşanın mədəni irsi", Regional turizmin inkişafı sektorunun müdiri Elgün Cavadov "Turizm destinasiyaları", Təhsil və təlim sektorunun müdiri Arzu Tairquliyeva – Nağıyeva "Dövlət Turizm Agentliyi və təhsil müəssisələrinin əməkdaşlığı" mövzusunda məruzə ediblər.



Sonda "Travelport" şirkətinin Azərbaycan üzrə direktoru Emil Bayramov və şirkətin təlimçisi Etibar Məmmədov seminar iştirakçılarına təmsil etdikləri şirkətin fəaliyyəti haqqında ətraflı məlumat verib, Azərbaycan Universitetinin turizm ixtisaslarında təhsil alan tələbələri üçün təşkil etdikləri "Galileo" bronlaşdırma sistemi kursunu uğurla başa vuranlara sertifikatlarını təqdim ediblər.

## "Bədii ədəbiyyatda Qarabağ" mövzusunda seminar keçirilib



Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Fərhad Mədətovun apardığı seminarda qeyd olunub ki, Azərbaycan ədəbiyyatı Qarabağ mövzusuna sıx-sıx müraciət edir. Qarabağa həsr olunan əsərlərdə bölgənin təbii gözəllikləri, maddi-mənəvi mədəniyyəti ilə yanaşı tariximizin son 30 ilini çevrələyən və cəmiyyətimizin başlıca problemi səviyyəsinə yüksələn Dağlıq Qarabağ münaqişəsi də müxtəlif yönləri ilə öz əksini tapıb.

## Müəllimimiz "Şuşa Beynəlxalq Kulinariya Festivalı"nda iştirak edib



Maliyyə və iqtisadiyyat kafedrasının müəllimi Qəhrəman Yusupov Heydər Əliyev Mərkəzi və Dövlət Turizm Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən "Şuşa Beynəlxalq Kulinariya Festivalı"nda iştirak edib. Şuşanın qədimliyinin və Azərbaycan xalqının qonaqpərvərliyinin, müxtəlif ölkələrin maddi – mənəvi dəyərlərinin nümayiş etdirildiyi festivalda Azərbaycanla yanaşı, Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan olan kulinarlar qonaqları öz ölkələrinin təamları ilə tanış ediblər. Tədbirdə Belçika, Çexiya, Fransa, İtaliya, İsrail, Kanada, Koreya, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələr qida sahəsi üzrə beynəlxalq ekspertlər və blogerlər ilə təmsil olunub.

## Axısqa türkləri ilə görüş "Şuşa ili"nə həsr olunub

Azərbaycan dili və ədəbiyyat kafedrası tərəfindən təşkil olunan görüşdə qeyd olunub ki, 44 günlük Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri kimi Axısqa türkləri də qəhrəmanlıq göstərib, böyük zəfərin qazanılmasına öz töhfələrini veriblər. Tədbirdə Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimova, kafedranın professoru Asif Hacıyev, Azərbaycanda yaşayan Axısqa türkləri "Vətən" İctimai Birliyinin sədr müavini Rüstəm Xəlilov, birliyin İdarə Heyətinin üzvü və bölgə rəhbəri Mühiddin Xəlilov, birliyin ağsaqqallar şurasının sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Cabir Xalidov və digər qonaqlar Axısqa türklərinin öz torpaqlarına qayıtmaq uğrunda apardıqları mübarizə və ədəbi yaradıcılıqları haqqında məlumat veriblər.



Çıxışlarda qeyd olunub ki, Qarabağ zəfəri Axısqa türklərini də ürəkdən sevindirir, 2022-ci ilin "Şuşa ili" elan edilməsi hər bir axısqalı üçün də çox əlamətdar, sevincli və qürurverici hadisədir.

## "Salam, Şuşa! Biz qayıtmışıq" adlı bilik yarışı keçirilib

Bilik yarışında 8 komandada 40 tələbə Qarabağ və Şuşanın tarixi, ədəbi mühiti, görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığına dair sualları cavablandırıblar. "Zirvə", "Zəfər", Şuşa", "Neptun", "Albert", "Ceyhun Hacıbəyli", "Xarı Bülbül", "Viktorian" komandaları arasında maraqlı və gərgin keçən mübarizədə komandaların cavabları münsiflər heyəti tərəfindən qeydə alınıb və qiymətləndirilib.



Turların sonunda "Victorian" komandası III, "Ceyhun Hacıbəyli" komandası II, "Zirvə" komandası isə I yeri tutub. Qalib komandaların üzvləri hədiyyə və diplomlarla təltif ediliblər.






## Azərbaycan Universitetinin 30 illiyinə həsr olumuş tədbir keçirilib

Yubiley tədbirini giriş sözü ilə rektor Səadət Əliyeva açaraq Azərbaycan Universitetinin 30 yaşını Qarabağ Zəfərinin birinci ildönümü və ölkəmizin dövlətçilik ənənələrinin və müstəqilliyinin bərpasının 30-cu ildönümü ilə eyni dövrdə böyük qürur və fəxarət hissi ilə qeyd etdiyini bildirib, öz biliyini, istedadını və əməyini Azərbaycan Universitetinin yaranmasına və inkişafına sərf edən hər kəsə təşəkkür edib.

Rektorun çıxışının ardından tədbir iştirakçıları üçün Azərbaycan Universitetinin 30 illik yubileyi münasibətilə hazırlanmış sənədli film nümayiş olunub. Filmdə rektor Səadət Əliyeva son 5 il ərzində görülən işlərə və universitetin əldə etdiyi uğurlara nəzər salır, növbəti dövr üçün qarşıya qoyulmuş məqsəd və hədəflərdən bəhs edir. Sənədli filmdə həmçinin ali məktəbə müxtəlif illərdə rəhbərlik etmiş rektorlar prof. Səlahəddin Xəlilov, prof. Akif Musayev, prof. Fərahim Sadıqov, dos. Eldar Qəhrəmanovun xatirələri və təbrik mesajları universitet rəhbərliyinin və heyətin nəzərinə çatdırılır, universitet tarixindən faktlar və fotosənədlər təqdim olunur.

Filmin nümayişinin ardından Azərbaycan Universitetinə uzun illər xidmət etmiş bir qrup müəllim və inzibati heyət üzvü rektorun fəxri fərman və təşəkkürnaməsi ilə təltif olunublar.












Gələcəyini bu gün seç!
30 İL
1991-2021
AZƏRBAYCAN UNİVERSİTETİ
TƏŞƏKKÜRNAMƏ








30 İL
1991-2021
AZƏRBAYCAN UNİVERSİTETİ
TƏŞƏKKÜRNAMƏ


30 İL
1991-2021
AZƏRBAYCAN UNİVERSİTETİ

## XXVIII buraxılış Məzun Günü xoş xatirələrlə yadda qalacaq




XXVIII buraxılış "Məzun Günü"nün rəsmi hissəsində açılış nitqi ilə çıxış edən rektor Səadət Əliyeva bildirib ki, Azərbaycan Universiteti dövlətimizin ali təhsil qarşısında qoyduğu vəzifələri həyata keçirmək, tədrisi aparılan ixtisaslar üzrə hərtərəfli bilik və bacarıqlara malik mütəxəssislər hazırlamaq, mənəvi cəhətdən sağlam gənclər yetişdirmək üçün bütün imkanlarını, texniki və kadr potensialını səfərbər edib. Rektor çıxışında məzunları təbrik edib, həyatlarının bundan sonrakı dövründə onlara uğurlar arzulayıb.
Tədbirin qonağı, psixoloq Elnur Rüstəmov təhsilin universitet həyatı ilə məhdudlaşmadığını, ömür boyu davam edən proses olduğunu bildirib, məzunlara xoş arzularını çatdırıb.
Universitetin Kompüter mühəndisliyi ixtisası üzrə 2017-ci il məzunu, "Hədəf" liseyinin İnformatika kafedrasının müdiri və olimpiadalar üzrə koordinatoru Məmməd Kərimli tələbəlik illəri ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.
Humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov, İnformasiya – kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev, Maliyyə və iqtisadiyyat kafedrasının müdiri Nəriman Böyükkişi, Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev çıxış edərək məzunları təbrik edib, xoş arzularını bildiriblər.



Çıxışların ardından universitetdən birinciliklə məzun olan, Biznes və iqtisadiyyat fakültəsinin Kommersiya ixtisası üzrə təhsil alan tələbəsi Nəcibə Əliyevaya və yüksək göstəricilərlə məzun olan daha 10 tələbəyə Azərbaycan Universiteti rektorunun fəxri fərmanları təqdim olunub. Nəcibə Əliyeva 2021/2022-ci tədris ili məzunları adından çıxış edərək universitet kollektivinə və müəllimlərinə təşəkkür edib.
Rəsmi hissə müğənni İlkin Fuadın konsert proqramı ilə davam edib. Tədbirin bədii hissəsi isə "Excelsior Hotel&Spa Baku"da, hovuz başında təşkil olunub.

## Ənənəvi "Karyera Günü"ndə 50-yə yaxın şirkət iştirak edib




Tədbirdə müxtəlif profilli şirkət, idarə və müəssisələr, dövlət orqanları IV kurs tələbələrinə və digər iştirakçılara öz vakansiyalarını, təcrübə və tələbələr üçün nəzərdə tutulan müxtəlif proqramlarını təqdim ediblər.



Tədbirdə iştirak edən şirkət nümayəndələri və insan resursları üzrə menecerlər iştirakçıların işə müraciət və təcrübə keçmək üçün hazırladıqları CV-ləri qəbul edib, onlara iş üçün müraciət qaydaları, düzgün CV hazırlanması, iş müsahibələrinə hazırlaşma, özünü təqdimetmə üsulları haqqında məsləhət və tövsiyələrini veriblər.

## Rektor Səadət Əliyeva təltif olunub



Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının (ATİAHİ) yaradılmasının 100 illiyi münasibətilə həmkarlar ittifaqı hərəkatında xidmətlərinə görə "Yubiley döş nişanı" ilə təltif olunub. Rektor bu mükafata ATİAHİ Respublika Komitəsinin Rəyasət Heyətinin qərarı ilə layiq görülüb.
Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı 1920-ci il iyunun 9-da yaradılıb və yarandığı vaxtdan bu günə kimi öz üzvlərinin, müəllimlərin, təhsil sahəsində çalışan işçilərin əmək və sosial hüquqlarının qorunmasında, onların asudə vaxtının səmərəli keçirilməsində, istirahətlərinin təşkilində böyük xidmətləri olub.

## Kanzas Universitetinin professoru "Genderə giriş" fənnini tədris edib



ABŞ-ın Kanzas Universitetinin professoru Mehrəngiz Nəcəfizadə yaz semestrində Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə təhsil alan II kurs tələbələrinə "Genderə giriş" fənnini tədris edib.
Gender tədqiqatçısı professor "Fulbright" proqramı ilə Azərbaycan Universitetinin heyətinə qoşulub.
Semestr ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi, sosioloq Zəminə Səfərova, gender tədqiqatçısı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Kifayət Ağayeva, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, "İnci" Psixoloji Reabilitasiya Mərkəzinin təsisçisi və direktoru Ramidə Oktayqızı fənnin qonaq mühaziрəçisi olub, tələbələrə gender probleminin müxtəlif aspektlərinə dair məlumat veriblər.



Amerikalı professor semestrin başlanğıcında və ölkəsinə yola düşməzdən əvvəl rektor Səadət Əliyevanın qəbulunda olub. Görüşlərdə ali təhsil sahəsində təqaüd və qrant proqramlarının, müəllim mübadiləsinin əhəmiyyəti və üstünlükləri müzakirə olunub.

## Polşalı alim Tomasz Bober tələbələrimizə mühazirə oxuyub



Polşanın Krakov İqtisadiyyat Universitetinin müəllimi Tomasz Bober "Erasmus+" mübadilə proqramı ilə Biznes və iqtisadiyyat fakültəsinin tədrisi ingilis dilində aparılan Biznesin idarə edilməsi, Maliyyə, Mühasibat, Marketinq, İqtisadiyyat ixtisaslarında təhsil alan tələbələrə mühazirə oxuyub.
Tomasz Boberin mühazirələri "Elektron ticarətin tarixi, formaları və meyilləri", "Yaradıcı reklam və marketinq yenilikləri ilə rəqiblərdən fərqlənmək" və "Biznes planının hazırlanması" mövzularına həsr olunub.

## ECAR layihəsinin təlim və görüşləri davam edir



Azərbaycan Universitetinin tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) "Erasmus+" layihəsinin təlim və görüşləri davam edir. "Strateji planlaşdırma və idarəetmə" mövzusunda iki günlük təlim fevral ayında Bakı Biznes Universitetində keçirilib. Layihənin mart ayındakı təliminə Bakı Mühəndislik Universiteti, aprel ayındakı "Liderliyin əsasları" mövzusuna həsr olunmuş təliminə isə Azərbaycan Universiteti ev sahibliyi edib. Təlimlər Azərbaycan HR İnstitutunun dəstəyi ilə təşkil olunub. İyun ayında rektorların iştirakı ilə keçirilən görüşdə konfransın Nizamnamə layihəsi və iş planları müzakirə olunub.



Layihənin tərəfdaşı olan ali təhsil müəssisələrinin nümayəndələri xarici təcrübənin öyrənilməsi məqsədi ilə may ayında İsveç, iyul ayında Polşa, oktyabr ayında Fransaya səfər ediblər.
Qeyd edək ki, layihənin koordinatoru Bakı Biznes Universitetidir. 2021-2024-cü illəri əhatə edən layihənin əsas məqsədi milli inkişaf strategiyalarına uyğun olaraq rektorlar konfransının yaradılması yolu ilə universitetlər və digər maraqlı tərəflər arasında milli şəbəkə və əməkdaşlığı inkişaf etdirməkdir. Layihədə Azərbaycandan 16, Avropadan isə 5 ali təhsil müəssisəsi və təşkilat iştirak edir.

## İrəvan Müəllimlər Seminariyasının 140 illiyi qeyd olunub

İrəvan Müəllimlər Seminariyasının yaranmasının 140 illiyinə həsr olunan tədbirdə seminariyanın məzunlarının həyat və fəaliyyəti haqqında məlumat verilib. Qeyd olunub ki, Azərbaycanın tarixi torpağı olan İrəvanda təsis edilmiş seminariyanın məzunlarının maarifçilik ideologiyasının inkişaf etdirilməsində xüsusi xidmətləri olub.
Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova, kafedranın professoru Asif Hacıyev, İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyevin çıxışlarında İrəvan xanlığı, İrəvan Müəllimlər Seminariyasının yaranma tarixi, seminariyada dərslərin təşkili, milli təhsil tariximizdə yeri və əhəmiyyəti ilə bağlı faktlar öz əksini tapıb. Bildirilib ki, İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı milli yaddaşın bərpası baxımından mühüm əhəmiyyət kəsb edir, bizi tariximizi araşdırmağa yönəldir, İrəvan xanlığı ərazisində yaratdığımız tarixi irsə sahib çıxmağa səsləyir.

## TKTA Azərbaycan Universitetində təlim keçirib



Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Təlim və metodologiya şöbəsinin müdiri Asiman İlyasovun apardığı təlim "Sillabusların tərtibi, təlim nəticələrinin formalaşdırılması və qiymətləndirilməsi" mövzusuna həsr olunub. Təlimin məqsədi Azərbaycan Universitetinin akademik heyətinə sillabusların hazırlanması və təlim nəticələrinin müvafiq standartlara uyğun olaraq yazılmasına dair məlumat vermək və daxili keyfiyyət təminatına dəstək göstərməkdən ibarətdir.
Tədbir agentlik ilə Azərbaycan Universiteti arasında təlim xidmətinin göstərilməsinə dair əməkdaşlıq müqaviləsinə uyğun olaraq təşkil olunub.

## Millət vəkili Aqil Abbas filologiya tələbələri ilə görüşüb



Yazıçı-publisist, Milli Məclisin deputatı, "Ədalət" qəzetinin baş redaktoru Aqil Abbasın filologiya tələbələri ilə görüşü Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimovanın giriş sözü, kafedranın professoru Asif Hacıyev və kafedranın dosenti Fərhad Mədətovun Aqil Abbasın həyat və yaradıcılığına həsr olunmuş məruzələri ilə başlayıb. Çıxışlardan sonra Aqil Abbas tələbələrin onun yaradıcılığı, nəşr olunduğu dövrdə böyük hadisəyə çevrilən "Dolu", XVIII əsrin sonunda Azərbaycan xanlıqları arasındakı ziddiyyətli münasibətlərdən, həmin dövrdə Qarabağda cərəyan edən hadisələrdən bəhs edən "Batmanqılınc" romanları, ədəbi görüşləri, Azərbaycan ədəbiyyatının dünyadakı mövqeyi haqqında suallarını cavablandırıb, tələbələrlə görüşməkdən hər zaman məmnun olduğunu vurğulayıb.
Sonda xatirə şəkli çəkdirilib, yazıçının tələbələrə kitabları hədiyyə edilib.

## Yazıçı Rüstəm Mirzəyev filologiya tələbələri lə görüşüb



Görüş Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi Hüseyn Hüseynlinin moderatorluğunda təşkil olunub. Hüseyn Hüseynli qonağı tələbələrə təqdim edərək qeyd edib ki, Rüstəm Mirzəyev ixtisasca hüquqşünasdır, hazırda Nazirlər Kabineti yanında Azərbaycan Dövlət Tərcümə Mərkəzinin mütəxəssisidir. Rus, portuqal və ingilis dillərini bilir. 2010-cu ildən rus dilində qısa hekayə və romanlar yazır. 2019-cu ildə "Почему? Книга первая: Капоэйра" adlı ilk romanı işıq üzü görüb. Bu, tarixi hadisələr fonunda baş verən detektiv, psixologiya, mistika və melodram elementləri olan bir romandır. Romanda hadisələr 1969-cu ildə Braziliyada baş verir. Hazırda isə o, Ukrayna – Rusiya müharibəsindən bəhs edən yeni bir əsər üzərində işləyir.
Daha sonra Rüstəm Mirzəyev tələbələr qarşısında yazı bacarıqlarının inkişafına həsr olunan məruzə ilə çıxış edib. Qonaq tələbələrə müxtəlif yazı növləri və onların strukturu, funksiyaları haqqında məlumat verib.

## "Dünya Aviasiya və Kosmonavtika Günü"nə həsr olunan tədbir keçirilib



12 Aprel – Dünya Aviasiya və Kosmonavtika Gününə həsr olunmuş "Kosmosa açılan pəncərə" adlı tədbirin moderatorluğunu İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev edib. Dekan tələbələrə günün yaranması ilə bağlı məlumat verib və kosmonavtika mövzusunun daim aktual olduğunu vurğulayıb.
Elmi işlər üzrə prorektor Yusif Qasımovun çıxışı yer sivilizasiyasının inkişafı, kosmosa turizm səfərlərinin təşkilinə həsr olunub. Prorektor qeyd edib ki, informasiya texnologiyalarının inkişafı ilə kosmik texnologiyaların inkişafı bir-birindən ayrılmazdır.
Tədbirdə AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının gənc alim və mütəxəssisləri - Aynurə Həsənova, Aysel Rüstəmova, Nurlan Şərəfxanov, Cənnət Səmədov mövzunun müxtəlif aspektlərinə həsr olunan "Şamaxı Astrofizika Rəsədxanasının tarixi və fəaliyyəti", "Azərbaycanda astronomiyanın tarixi", "Kosmik teleskoplar", "Kainatın yaranması və təkamülü" məruzələri ilə çıxış ediblər.

## Ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilib



Azərbaycan Universitetinin kollektivi ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Fəxri Xiyabanı ziyarət edib. Ümummilli liderin xatirəsi hörmət və ehtiramla yad olunub, məzarı önünə tər güllər qoyulub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Universitetin tədris binasında keçirilən anım tədbirində isə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının yetişdirdiyi, millətinin yükünü çiyninə götürərək onu bir dövrdən başqa dövrə aparan ən böyük tarixi şəxsiyyətlərdən biri olduğu vurğulanıb. Qeyd olunub ki, həyat və fəaliyyətini Azərbaycan xalqına həsr edən Heydər Əliyev ölkəmizin inkişaf strategiyasını müəyyən edib və onun həyata keçirilməsi üçün mühüm addımlar atıb. Ümummilli liderin ömür yoluna nəzər salanda onun verdiyi qərarların, atdığı addımların real nəticələrini biz indi görürük.

## "28 May – Müstəqillik Günü"nə həsr olunmuş tədbir keçirilib



İctimai elmlər kafedrasının təşkilatçılığı ilə keçirilən tədbirin qonağı AMEA-nın həqiqi üzvü, akademik Yaqub Mahmudov olub. Akademik tələbələr qarşısında "Dövlətçilik tariximizin Cümhuriyyət mərhələsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzə AXC qurucularının həyat və fəaliyyəti, Qafqaz İslam Ordusunun tərkibində vuruşan Cümhuriyyət zabitləri, Bakının erməni-bolşevik işğalından azad edilməsi, "İstiqlal Bəyannaməsi"nin maddələri, Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakı, AXC-nin bolşeviklər tərəfindən işğalı kimi mövzuları əhatə edib. Yaqub Mahmudov qeyd edib ki, AXC qarşısına qoyduğu bütün məqsədlərə işğal səbəbiylə tam müvəffəq ola bilməsə də, onun Azərbaycan xalqının şüurunda bərqərar etdiyi müstəqillik arzusu unudulmayıb. 1988-ci ildən başlayaraq baş verən proseslər Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə yekunlaşıb.
Tədbirdə həmçinin vurğulanıb ki, bu il 104 illiyini qeyd etdiyimiz AXC milli dövlətçilik ənənələrimizin bərpasında böyük rol oynayıb, xalqımızın böyüklüyünü bütün dünyaya nümayiş etdirib. Bugünkü müstəqil Azərbaycan onun bütün demokratik ənənələrinə sadiqdir və bu ənənələri yaşadır.

## "15 İyun - Milli Qurtuluş Günü"nə həsr olunmuş tədbir keçirilib



İctimai elmlər kafedrası tərəfindən təşkil olunan tədbirdə kafedranın professoru Qasım Hacıyevin çıxışı dinlənilib. Professor qeyd edib ki, 15 iyun müasir Azərbaycan tarixinin müstəsna əhəmiyyətə malik dönüş nöqtələrindən biridir. Ümumilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərliyi vətəndaş müharibəsinin astanasında olan xalqımızı böyük bir fəlakətdən xilas edib, ölkəmizin bu günkü inkişafını şərtləndirən siyasi və iqtisadi islahatların təməli qoyulub.
Azərbaycanın 1991-ci ildə bərpa etdiyi müstəqilliyinin qorunub saxlanması birmənalı olaraq ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir. Xalqımız ümummilli liderin Azərbaycan rəhbərliyinə qayıdışı ilə tarixi sınaqdan üzüağ çıxıb və dövlətçilik ənənələrini yeni müstəvidə daha da zənginləşdirib.

## Tünzalə Verdiyeva www.autizmders.az saytının təqdimat mərasimində iştirak edib




Azərbaycan Universitetinin Sosial işin təşkili kafedrasının müdiri, autizm tədqiqtçısı, pedaqogika üzrə fəlsəfə doktoru Tünzalə Verdiyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sifarişi ilə icra olunan layihə çərçivəsində autizmli uşaqlar üçün "AutizmDERS" mobil tətbiqi və www.autizmders.az saytının təqdimat mərasimində iştirak edib. Hökumət və qeyri-hökumət qurumları nümayəndələrinin də iştirak etdiyi tədbirdə kafedra müdiri "Autizm sindiromlu uşaqların inkişaf xüsusiyyətləri" mövzusunda çıxış edib. Tünzalə Verdiyeva çıxışında autizm sindromunun tədqiqat tarixi, inkişaf xüsusiyyətləri, autizmli uşaqların valideynlərinin qarşılaşdığı psixo-sosial problemlər, autizmli uşaqların sosiallaşması və cəmiyyətə inteqasiya olunması yolları haqqında məlumat verib.

"AutizmDERS" vasitəsilə valideynlər uşaq psixoloqu, loqoped, özəl pedaqoq və müalicəvi idman müəllimlərinin iştirakı ilə hazırlanmış video materiallardan istifadə edə biləcək. Bununla övladlarının ev şəraitində də bir sıra reabilitasiya tədbirləri ilə əhatə olunmalarına dəstək verə biləcəklər.



## Ali Məhkəmənin hakimi İsmayıl Xəlilov tələbələrimizin qonağı olub



Sosial işin təşkili kafedrasının müəllimi Firuzə Hüseynovanın təşkilatçılığı ilə baş tutan görüşdə Azərbaycan Respublikasının Ali Məhkəməsinin hakimi İsmayıl Xəlilov tələbələr qarşısında "Məhkəmələrin sosial həyatda rolu" mövzusunda çıxış edib. Çıxış hakimiyyətlərin bölgüsü prinsipi, qanunverici hakimiyyət, icraedici hakimiyyət və məhkəmə hakimiyyəti arasındakı fərqlər və onların qarşılıqlı əlaqələri, Azərbaycanın məhkəmə sistemi, məhkəmələrin səlahiyyətləri kimi mövzuları əhatə edib.

## Vəkil Elnarə Eyyubova tələbələrimizin qonağı olub



Sosial işin təşkili kafedrasının müəllimi Aynur Bünyatovanın Sosial iş ixtisasının III kurs tələbələrinə tədris etdiyi "Məişət zorakılığı və sosial iş" fənninin qonaq mühazirəçisi Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, "Mərkəz" Vəkil Bürosunun vəkili, hüquqşünas Elnarə Eyyubova olub.

Qonaq mühazirəçi tələbələrə "Qadın və kişi hüquqları", "Ailə daxilində baş verən zorakılıq halları", "Mediasiya xidməti", "Məhkəməyə müraciət qaydaları", "Zorakılığa məruz qalan şəxslərə ödənişsiz vəkil xidməti" kimi mövzularda məlumat verib.

## Azərbaycan Universitetinin kollektivi Şəhidlər Xiyabanını ziyarət edib



20 Yanvar faciəsinin 32-ci ildönümündə Azərbaycan Universitetinin kollektivi Şəhidlər Xiyabanını ziyarət edib. Şəhid məzarları üzərinə tər qərənfillər düzülüb, əziz xatirələri ehtiramla yad edilib. Universitetin tədris binasında təşkil olunan anım tədbirində qeyd olunub ki, 20 Yanvar hadisəsi xalqımızın həm hüzn, həm də şərəf günüdür. Xalqımız müstəqillik uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsini daim uca tutur.

## "Xalqın öz azadlığı uğrunda mübarizəsinin zirvəsi" mövzusunda dəyirmi masa keçirilib



Azərbaycan dili və ədəbiyyat kafedrasında professor - müəllim heyətinin iştirakı ilə keçirilən və 20 yanvar faciəsinin 32-ci ildönümünə həsr olunan dəyirmi masada qeyd olunub ki, 20 Yanvar faciəsinin ilk əks-sədası ədəbiyyatın ən operativ janrı olan poeziyada öz əksini tapıb. Şəhidlərimiz hələ torpağa tapşırılmamış Xalq şairi Qabilin yazdığı "Mərsiyə" ədəbi prosesi təlatümə gətirib. Qabilin harayına Məmməd Aslan "Ağla, qərənfil, ağla" şeiri ilə qoşulub. Vaxtında və zamanında yazılan bu şeir qərənfil obrazının bütövlükdə abidəsini ucaldıb.

Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması isə "20 Yanvar müsibəti"ni dastanlaşdırıb.
O ağır günlərdə Nəbi Xəzri, Cabir Novruz, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanlı, Fikrət Qoca, Musa Yaqub, Musa Ələkbərli qələmindən süzülən göz yaşları dərdlərimizə ağı deyib. Xalq şairi Zəlimxan Yaqubun "Şəhid qanı", Nəriman Həsənzadənin "Şəhidlər xiyabanı" şeirləri Şəhidlər Xiyabanında hər kəsi bir anlıq dayanmağa, düşünməyə və "Şəhidlər Xiyabanı" adlı bir dünyanın sakinlərinin taleyini dinləməyə səsləyib.
20 Yanvar Güney Azərbaycan ədəbiyyatının da aparıcı mövzusuna çevrilib.

## Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunan tədbir keçirilib



Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunan anım tədbirində qeyd olunub ki, Azərbaycan dövləti ağır və məşəqqətli, fəqət şərəfli bir mübarizənin nəticəsində yaranıb, Azərbaycan xalqı ağır itkilər, faciələr bahasına milli azadlığına, dövlət müstəqilliyinə nail olub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinin işğalı zamanı dinc Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı bu faciələrdən biridir.
Tədbirdə tələbələrə Xocalı soyqırımının səbəbləri, həyata keçirilmə üsulları və nəticələri haqqında məlumat verilib. Bildirilib ki, xalqımızın qan yaddaşına əbədi həkk olunan Xocalı soyqırımı qurbanlarının qisası 44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm zəfər ilə döyüş meydanında alınıb.
Qeyd olunub ki, XX əsrdə dünyanın bir çox yerlərində oxşar faciə və etnik təmizləmə aktları törədilsə də, onların sırasında Xocalı ən dəhşətli səhifələrdəndir. Bu dəhşətli faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

## Xocalı soyqırımına həsr olunmuş ədəbi - bədii kompozisiya təqdim olunub



Tədbirdə Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov və Nəsimi rayon icra başçısının 1-ci müavini Gülarə Verdiyeva çıxış edərək Xocalı soyqırımının Azərbaycanın müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpa olunması uğrunda apardığı mübarizədə yeri və əhəmiyyəti, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm zəfərin tələbələr qarşısında müəyyənləşdirdiyi öhdəlik və vəzifələr haqqında danışıblar.
Çıxışlardan sonra iştirakçılar Tələbə Gənclər Təşkilatının üzvləri tərəfindən hazırlanan videoçarx və ədəbi-bədii kompozisiyaya tamaşa ediblər.
Ədəbi-bədii kompozisiya soyqırımı gecəsini əks etdirən "Sönük işıq" adlı səhnəcik, şeir və mahnılardan ibarət olub.

## "Xocalı soyqırımı obyektivlərdə" sərgisi açılıb



1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə mühasirədəki Xocalı şəhərini işğal edərkən dinc Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın 30-cu ildönümünə həsr olunan "Xocalı soyqırımı obyektivlərdə" sərgisində yerli və xarici fotoqraf və jurnalistlərin Xocalı və Ağdamda çəkdikləri şəkillər nümayiş olunur.
Sərgidə nümayiş olunan əsərlərdə soyqırımın miqyası və təfərrüatları, dinc əhaliyə qarşı xüsusi amansızlıqla törədilmiş misli görülməmiş qəddarlıq, vəhşilik və cinayətlər barədə fraqment və faktlar öz əksini tapıb.

## "31 Mart – Azərbaycanlıların Soyqırımı Günü" anılıb



İctimai elmlər kafedrası tərəfindən təşkil olunan tədbirin qonağı Turizm və Menecment Universitetinin professoru, soyqırımı problemlərinin tədqiqatçısı Məhərrəm Zülfüqarov olub. Qonağın çıxışı mart soyqırımının səbəbləri və araşdırılmasına həsr olunub.
Tədbirdə qeyd olunub ki, son iki yüz il ərzində azərbaycanlılar "Böyük Ermənistan" dövləti qurmaq xülyası ilə yaşayan erməni millətçilərinin etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalıb. Bu siyasətin ən dəhşətli təzahürü özünü 1918-ci ilin mart ayında göstərib. 1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində bolşeviklər və erməni silahlı dəstələri tərəfindən on minlərlə insan vəhşicəsinə qətlə yetirilib. Bildirilib ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı sənədlər toplayıb. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 1918-ci ilin mart qırğınları ilə bağlı araşdırmalar aparılıb, kitablar dərc olunub.
1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayıb. Həmin gündən 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.
Tədbirdə erməni terrorizminə qarşı mübarizə aparmaq məqsədilə yaradılan "Difai" partiyasının fəaliyyəti haqqında da məlumat verilib, həmçinin vurğulanıb ki, Azərbaycan dövləti və xalqı tarixindəki bütün çətinliklərin öhdəsindən uğurla gəlmək iqtidarındadır.

## Azərbaycan Universiteti TUI ilə əməkdaşlığa başlayıb



Dünyanın öndə gələn turizm qrupu TUI ilə əməkdaşlığa dair memorandumu rektor Səadət Əliyeva və qrupun Türkiyə nümayəndəsi "TUI Hotels & Resorts Türkiyə" şirkətinin rəhbəri Satı Murat Demirer imzalayıblar. Memoranduma əsasən Azərbaycan Universitetinin turizm, biznes və iqtisadiyyat yönümlü ixtisaslarında təhsil alan tələbələr "TUI Hotels & Resorts Türkiyə" şirkətinin nəzdində fəaliyyət göstərən turizm müəssisələrində işlə təmin olunacaqlar. Bu imkandan həm bakalavriat, həm də magistratura tələbələri faydalana biləcək. İşlə təmin olunma tələbələrin müraciətləri ilə və müəssisələrin kadr ehtiyaclarına uyğun olaraq həyata keçiriləcək. Memorandumda akademik heyətin şirkətin turizm müəssisələrində araşdırma aparmalarına dəstək göstərilməsi də nəzərdə tutulub.
Qeyd edək ki, turizm sahəsində 30 illik təcrübəyə sahib "TUI Group"un Türkiyə nümayəndəsi "TUI Hotels & Resorts Türkiyə" şirkətinin mərkəzi Antaliyadadır. Şirkətin tərkibində 21 otel fəaliyyət göstərir.

## Azərbaycan Universiteti ilə EUA arasında yeni əməkaşlıq istiqamətləri müzakirə olunub

Azərbaycan Universiteti rektorunun müşaviri, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru Nüşabə Quliyeva ilə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bəxtiyar Bədəlov Avropa Universitetləri Assosiasiyasının (European University Association / EUA) baş katibinin müavini Monika Steinel ilə görüşüb.
Görüş Azərbaycan Universitetinin tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) Erasmus+ layihəsinin növbəti təlimlərinin keçirildiyi İsveçin Kral Texnologiya Universitetində baş tutub. Görüşdə Azərbaycan Universiteti ilə assosiasiya arasında gələcək əməkdaşlıq perspektivləri və istiqamətləri müzakirə olunub.
Qeyd edək ki, Avropanın 50-yə yaxın ölkəsindən 1000-ə yaxın universiteti birləşdirən assosiasiyada Azərbaycan cəmi 3 universitetlə təmsil olunur.



Azərbaycan Universiteti 2021-ci ildə assosiasiyanın həqiqi üzvlüyünə qəbul edilib. Qurumun əsas missiyası Avropada ali təhsil və tədqiqat sistemini davamlı inkişaf etdirmək və gücləndirmək; üzvlərə dəstək və rəhbərlik verərək tədris, öyrənmə, tədqiqat və ictimai xidmətdə keyfiyyəti artırmaqdır.

## Azərbaycan Universiteti "International Week" tədbirində təmsil olunub



Rektorun müşaviri, Beynəlxalq magistratura və doktorantura mərkəzinin direktoru Nüşabə Quliyeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bəxtiyar Bədəlov İtaliyanın Tuscia Universitetində səfərdə olublar. Əməkdaşlarımız burada "Erasmus" proqramı çərçivəsində təşkil olunan 5 günlük "International Week" təlimlərində iştirak ediblər.
20-dən çox ölkədən 60-a yaxın nümayəndənin iştirak etdiyi tədbirdə ali təhsildə beynəlmiləlləşmə, beynəlxalq kredit mobilliyinin idarə olunması kimi mövzularda fikir mübadiləsi aparılıb.
Azərbaycan Universiteti tədbirdə ölkəmizi təmsil edən yeganə ali təhsil müəssisəsi olub.

## Azərbaycan Universiteti Çankırı Karatekin Universiteti ilə əməkdaşlıq edəcək




Azərbaycan Universiteti ilə Türkiyənin Çankırı Karatekin Universiteti arasında əməkdaşlığa dair memorandum, həmçinin "Erasmus+" mübadilə proqramı çərçivəsində birgə fəaliyyətə dair protokol imzalanıb. Sənədləri Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva və Çankırı Karatekin Universitetinin rektoru Harun Çiftçi imzalayıblar.

Nümayəndə heyətləri arasında Azərbaycan Universitetində keçirilən görüşdə tərəflər arasında əməkdaşlığın müxtəlif istiqamətləri, universitetlərin beynəlmiləlləşməsi, müəllim və tələbə mübadiləsinin təşkili, o cümlədən birgə elmi-tədqiqat işlərinin, elmi tədbirlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb. Görüşdə Türkiyə - Azərbaycan münasibətlərinin möhkəm təməllərə malik olduğu və daim yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətləri bir sıra sahələr üzrə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, Azərbaycan və Çankırı Karatekin universitetləri elm və təhsil sahəsində bu yeni mərhələyə töhfə verməkdən böyük məmnunluq duyacaqlar.

## Azərbaycan Universiteti Kastamonu Universiteti ilə əməkdaşlıq edəcək

Türkiyənin Kastamonu Universitetinin rektoru professor Ahmet Hamdi Topalın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Universitetində olub. Görüşdə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Qeyd edilib ki, beynəlmiləlləşmə, həmçinin beynəlxalq əlaqələrin genişləndirilməsi, ikili diplom proqramlarının həyata keçirilməsi hər iki universitetin strateji hədəfləri arasındadır.



Bildirilib ki, Azərbaycan-Türkiyə əlaqələrinin gündən-günə möhkəmlənməsi Türk dünyası üçün böyük əhəmiyyət kəsb edir və Türk xalqları arasında münasibətlərin inkişafına müsbət təsir göstərir. Vurğulanıb ki, elmi əlaqələrin möhkəmləndirilməsi istiqamətində də mühüm işlər görülməlidir.

## Azərbaycan Universiteti "Erasmus International Week" tədbirində təmsil olunub



Rumıniyanin Timisioara Universitetində keçirilən və sayca 10-cusu təşkil olunan "Erasmus International Week" tədbirində 20 ölkədən 80 nümayəndə iştirak edib. Azərbaycan Universitetini tədbirdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bəxtiyar Bədəlov təmsil edib.

Şöbə müdiri burada Azərbaycan və Azərbaycan Universiteti haqqında təqdimatla çıxış edib. Təqdimat Azərbaycan Universitetinin fəaliyyəti, beynəlxalq əlaqələri, tədris olunan ixtisaslar, xarici vətəndaşlar üçün qəbul qaydaları, həyata keçirilən yeniliklər kimi mövzuları əhatə edib.

Azərbaycan Universiteti beynəlxalq kredit mobilliyi proqramı "Erasmus"a 2015-ci ildə qoşulub. Rumıniyanin Timisioara Universiteti ilə əməkdaşlığa isə 2020-ci ildə start verilib.

## Azərbaycan Universiteti Scimago reytinqində

Azərbaycanda tədqiqatçıların elmmetrik göstəricilərinin müəyyənləşdirilməsi məqsədilə ən sıx müraciət olunan elmi nəşr platformalarından biri olan Elsevier şirkətinin Scopus bazasının 2022-ci il üzrə "Scimago Institutions Rankings" hesabatı açıqlanıb. Hesabata görə Azərbaycan Universiteti elmi tədqiqat aktivliyi üzrə böyük uğura imza ataraq dünya reytinqinə daxil olub. Reytinq siyahısında Azərbaycandan 4 universitet, 3 elmi institut və 1 elmi mərkəz olmaqla cəmi 8 qurum yer alıb.




Azərbaycan Universiteti respublika üzrə elmi təşkilat, institut və ali təhsil müəssisələrinin siyahısında 3-cü yerdə, ali təhsil müəssisələri arasında isə 2-ci yerdə qərarlaşıb. Azərbaycan Universiteti bu reytinq üzrə ən yüksək kateqoriya olan Q1 kateqoriyasına daxil olub. Reytinqin əsas meyarı Scopus bazasında indekslənən jurnallarda həmin müəssisənin əməkdaşlarının dərc etdiyi elmi məqalələr və həmin məqalələrə olunan istinadların sayıdır.

## Prorektor Yusif Qasımov "Scimago" reytinqinə həsr olunan görüşdə çıxış edib

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının "Texnologiya və innovasiya" üzrə işçi qrupunun "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (Hirş indeksi) yaxşılaşdırılması üzrə" alt qrupunun ali təhsil müəssisələri ilə keçirdiyi görüşdə məruzə ilə çıxış edən Yusif Qasımov bildirib ki, "Scopus" bazası üzrə Scimago təşkilatının bu il üçün elan etdiyi reytinq sıralamasında Azərbaycanın cəmi 4 universiteti yer alıb. Azərbaycan Universiteti də bu sıralamada ikinci yerdədir. Bundan başqa universitet son 3 ildə "Web of Science" bazasında indekslənən məqalələrin sayına görə respublika üzrə ilk üçlükdə yer almaqdadır. Prorektor, məruzədə universitetdə bu uğurların əldə edilməsi istiqamətində aparılan işlər haqqında da məlumat verib. Yusif Qasımov görüşdə elmi nəşrlər, onların beynəlxalq standartlara uyğun təsis edilməsi və inkişafı haqqında təqdimat da nümayiş etdirib.




100-dən çox iştirakçının qatıldığı tədbirdə 40-dan çox ali təhsil müəssisəsinin rektor, prorektor, elm şöbələrinin rəhbərləri və digər akademik nümayəndələri iştirak ediblər.

## "Elmi platformalarda şəxsi profillərin yaradılması" mövzusunda təlim təşkil olunub



Təlim, Elm şöbəsi tərəfindən pedaqoji heyət üçün təşkil olunub. Şöbənin müdiri Lətifə Ağamalıyeva "Elmi platformalarda şəxsi profillərin yaradılması" mövzusunda təqdimatla çıxış edərək qeyd edib ki, tədqiqatçıların elmi aktivliyi, bu sahədəki kəmiyyət və keyfiyyət göstəriciləri əsasən elmi platformalar vasitəsilə müəyyənləşdirilir.
Şöbə müdiri daha sonra ResearchGate, Google Scholar, Academia bazalarında şəxsi profillərin yaradılması, elmi məqalələrin müəlliflərinin identifikasiyası üçün beynəlxalq sistem olan ORCID kodunun alınması, əməkdaşların daha öncə çap edilmiş, lakin internetdə olmayan məqalələrinin mövcud açıq akademik sistemlərdə yerləşdirilməsi qaydaları haqqında məlumat verib.

## Prorektor Yusif Qasımov beynəlxalq konfrans və seminarlarda çıxış edib



"Tətbiqi riyaziyyatda yeni istiqamətlər" adlı beynəlxalq konfrans Mərakeş Krallığının Beni Mellal şəhərinin Sultan Mouiay Slimane Universitetində keçirilib. Prorektor, r.e.d. Yusif Qasımov dəvətli məruzəçi kimi iştirak etdiyi tədbirdə apardığı tədqiqatlar və aldığı yeni nəticələr haqqında plenar məruzə ilə çıxış edib, həmçinin konfransın "Tərs məsələlər, idarəetmə və optimallaşdırma" bölməsinin moderatorluğunu edib. Prorektor Yusif Qasımov bundan əlavə həm də konfransın elmi komitəsinin üzvü olub.
Konfransın işində Mərakeş Krallığının müxtəlif universitetləri ilə yanaşı Fransa, ABŞ, Çexiya, Almaniya, İspaniya, İngiltərə kimi ölkələrin universitetlərini təmsil edən tanınmış alimlər də iştirak ediblər. Konfransın gedişində Yusif Qasımov müxtəlif universitetlərin nümayəndələri ilə Azərbaycan Universiteti arasında mümkün əməkdaşlıq imkanlarını və birgə tədqiqatların aparılması yollarını da müzakirə edib.
Prorektor Yusif Qasımov onlayn formatda təşkil olunan "Analiz və tətbiqi riyaziyyat" adlı həftəlik beynəlxalq elmi seminarda isə dəyişən oblastlı məxsusi ədəd məsələləri, oblasta nəzərən tərs spektral məsələ və bu kimi istiqamətlərdə aldığı nəticələr, onların bəzi mexaniki sistemlərə tətbiqləri haqqında məlumat verib və müzakirələr zamanı ona ünvanlanan sualları cavablandırıb.
Dünyanın 30-a yaxın ölkəsindən 120-dən çox alimin qoşulduğu seminarın rəhbəri tanınmış riyaziyyatçı alim, Bahceşehir Universitetinin, Near East Universitetinin, Xalqlar Dostluğu Universitetinin Riyaziyyat və Riyazi Modelləşdirmə İnstitutunun professoru Allaberen Ashyralyev olub.
Seminarın əsası 2021-ci ildə COVİD-19 pandemiyası zamanı beynəlxalq elmi konfransların, seminar və digər görüşlərin təşkilində yaranan boşluqların doldurulması, tədqiqatçılar arasında elmi əlaqələrin kəsilməzliyinin təmin edilməsi, alınan yeni nəticələrin nümayişi və müzakirəsi üçün platforma təqdim etmək məqsədi ilə qoyulub.

## Gənc tədqiqatçıların V respublika elmi konfransı keçirilib



Pandemiya səbəbilə 2020 və 2021-ci illərdə onlayn formatda təşkil olunan konfrans 2 illik fasilədən sonra ənənəvi formaya qayıdıb. Konfransı giriş sözü ilə Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov açaraq qeyd edib ki, Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfər, işğaldan azad etdiyimiz torpaqlara böyük qayıdış və orada başlayan bərpa-quruculuq işləri Azərbaycan elminin qarşısında mühüm vəzifələr qoyub. Bu vəzifələrin icrasında hər birimiz aktiv şəkildə iştirak etməliyik.




Konfransın plenar məruzəsini Bakı Dövlət Universitetinin dosenti, r.e.d. Miqdad İsmayılov edib. Plenar məruzə "Çəkili eksponent sistemin qrand lebeq fəzalarında bazisliyi" mövzusuna həsr olunub.
Fasilənin ardından konfrans işini "Tarix və hüquq", "Filologiya", "İqtisadiyyat-1", "İqtisadiyyat-2", "Sosiologiya", "Riyaziyyat, fizika, İKT" olmaqla 6 bölmədə davam etdirib.
Konfransa müzakirə üçün 20-yə yaxın ali təhsil müəssisəsi və elmi-tədqiqat institutunu təmsil edən magistrant, doktorant, dissertant və gənc tədqiqatçıların 134 tezisi qəbul olunub. Qəbul olunan tezislər materiallar toplusu şəklində nəşr edilib və qeydiyyat zamanı iştirakçılara təqdim olunub.

## İKT fakültəsinin dekanı Asif Paşayev Türkiyədə səfərdə olub




İnformasiya–kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev "İnsan- kompüter interfeysləri" sahəsində "Təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi" qrant layihəsi çərçivəsində mart ayında Türkiyənin Orta Doğu Texniki Universitetində (ODTU) təşkil olunan səfərdə iştirak edib.
Layihə iştirakçıları üçün burada müxtəlif təlim, praktiki məşğələ, görüş və müzakirələr keçirilib. İştirakçılar ODTU İnsan-kompüter interfeysinin (HCI) laboratoriyaları, Layihələndirmə Fabriki (Tasarım Fabrikası), ODTU-nun Texnokəndi ilə tanış olublar. Səfərdə ümumilikdə 12 universitetdən 17 nümayəndə iştirak edib.
Layihə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2021-ci ilin oktyabrında elan etdiyi "Ali və orta ixtisas təhsilinin 2021-2022-ci illər üzrə inkişafı" qrant müsabiqəsi çərçivəsində dəstəklənən 9 layihədən biridir. Layihənin qalibi və koordinatoru Naxçıvan Universiteti, eksperti isə ODTU-nun professoru Kürşat Çağıltaydır. Layihənin yekunu olaraq Naxçıvan Universitetində "İnsan-kompüter qarşılıqlı əlaqəsi" mövzusunda beynəlxalq konfrans keçirilib və Kürşat Çağıltayın "Nəzəriyyədən təcrübəyə insan-kompüter qarşılıqlı əlaqəsi və istifadəyə yararlılıq mühəndisliyi" kitabı Azərbaycan dilinə tərcümə edilərək çap olunub.

## "İpək yolu" jurnalının növbəti nömrəsi İrəvan Müəllimlər Seminariyasına həsr olunub

"İpək yolu" elmi jurnalının 2022-ci il üçün ikinci nömrəsi İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinə həsr olunub. Bu nömrədə İctimai elmlər kafedrasının professoru, tarix elmləri doktoru Qabil Əliyevin "Qərbi Azərbaycanın mühüm təhsil ocağı - İrəvan Müəllimlər Seminariyası" mövzusunda məqaləsi dərc edilib.




İpək yolu jurnalının qeyd olunan nömrəsinə iqtisad, filologiya və tarix elmlərinə aid Azərbaycan və ingilis dillərində məqalələr qəbul olunub.
Ciddi rəyləşdirilmiş elmi məqalələri dərc edən və bir sıra beynəlxalq bazalarda indekslənən "İpək yolu" jurnalının arxivini onlayn formada Azərbaycan Universitetinin saytından oxumaq mümkündür.
Müəlliflər təlimata uyğun hazırlanmış məqalələri ipek.yolu@au.edu.az elektron ünvanına göndərə bilərlər.

## Samirə Məmmədovanın məqaləsi nüfuzlu elmi jurnalda dərc olunub




Xarici dillər kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Samirə Məmmədovanın "On the linguistic features of auto-narrative investigation" (introversion coefficient, auto-reflection, auto-quotation, auto-correction and reflexives - in the context of meta-language elements) adlı məqaləsi Clarivate Analytics və Scopus elmi bazasında indekslənən "Revista Universidad y Sociedad" elmi jurnalında çap olunub.
Məqalədə son dövrlər aktual olan "narrativ paradiqma" anlayışı təhlil olunub, təhkiyənin ifadə olunma tərzinə yeni aspektdən baxılıb və daha yeni təhlil rakursları haqqında məlumat verilib. Eyni zamanda məqalədə təhkiyə formatının seçimindən asılı olaraq, avtorefleksiya, avtodialoq, avtokorreksiya faktlarının mətndaxili işlənmə tezlikləri də təhlil olunub.

## Professor Qabil Əliyevin məqaləsi “İrs Heritage” jurnalında dərc olunub




İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyevin “Qarabağ dəmir yolları” adlı məqaləsi “İrs Heritage” jurnalının 2022-ci il 51-ci sayında dərc olunub. Məqalədə XIX əsrin sonu – XX əsrin başlanğıcında Qarabağın şimalından cənubuna – Araz çayına və şərqə – Xəzər sahillərinə doğru inşa edilməsi planlaşdırılan dəmir yolu layihəsi haqqında məlumat verilib. Müəllif bəhs edilən dövrdə Qarabağ diyarının zəngin təbii sərvətləri və iqtisadi potensialının bu layihənin irəli sürülməsi üçün başlıca şərt olduğunu vurğulayıb.

Qeyd edək ki, “İrs Heritage” jurnalı 18 dildə, o cümlədən rus, ingilis, alman, çin, ərəb dillərində dünyanın 65-dən çox ölkəsində yayımlanan mötəbər nəşrdir. Jurnalın ümumi tirajı 100 min nüsxə təşkil edir. Jurnalda müntəzəm şəkildə Azərbaycan tarixi, mədəniyyəti, bədii sənəti və bu kimi sahələr haqqında maraqlı məqalələr dərc olunur.

## Rektorun müşaviri Nüşabə Quliyeva beynəlxalq simpoziumda iştirak edib




Rektorun müşaviri Nüşabə Quliyeva Molla Pənah Vaqifin anadan olmasının 305 illik yubileyinə həsr olunmuş “Mədəniyyətlərin inteqrasiyası və multikulturalizm” (Integration of cultures and multiculturalism) adlı XXIII beynəlxalq simpoziumda “Təhsildə gender problemi” mövzusunda məruzə ilə çıxış edib. Simpoziumda 7 ölkədən 70-dən çox iştirakçının səhiyyə, təhsil, sosial və texniki elmlər kimi sahələr üzrə təqdim etdikləri tezislərin təqdimatları dinlənilib. Simpozium “ELGER” Beynəlxalq Elm-tədris Mərkəzinin təşkilatçılığı, Türkiyənin Qafqaz Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, Naxçıvan Universiteti, Qazaxıstanın Avrasiya Milli Universitetinin tərəfdaşlığı ilə Zoom platforması üzərindən təşkil olunub.

## Əməkdaşlarımız onlayn beynəlxalq konqresdə məruzə ilə çıxış ediblər




Maliyyə və iqtisadiyyat kafedrasının müdiri Nəriman Böyükkişi və kafedranın müəllimləri Ruhəngiz Əliyeva, Xanım Quliyeva, Vüqar Bağırlı və Asəf Kazımov Türkiyənin “Gelişim” Universiteti tərəfindən 10-11 mart 2022-ci il tarixlərində onlayn formatda təşkil olunan Tətbiqi Sosial Elmlər Beynəlxalq Konqresində (International Congress Of Applied Social Sciences) məruzə ilə çıxış ediblər.

Nəriman Böyükkişinin məruzəsi “Azerbaycan makine-inşaat sektörünün personel potansiyeli kullanımını iyileştirme yönergeleri” (Directions to Improve the use of Personnel Potential of Azerbaijan Machine-Buildİng Industry), Ruhəngiz Əliyevanın məruzəsi “Azerbaycan işçi piyasasının mevcut durumu ve istihdam üzerine etkisi” (The Current Situation of the Labor Market in Azerbaijan and the Effect on Employment), Xanım Quliyevanın məruzəsi “Econometric Relationship Between Unemployment and Crime in Azerbaijan”, Vüqar Bağırlının məruzəsi “Cinsiyet eşitliğinin uluslararası hukuki yönleri” (International Legal Aspects of Gender Equality), Asəf Kazımovun məruzəsi “Azerbaycan'da yükseköğretimde insan kaynakları eğitimi ve insan kaynakları yönetim sistemi geliştirmenin bazı öncelikleri” (Some Priorities of Human Resource Training and Human Resource Management System Development in Higher Education in Azerbaijan) mövzusuna həsr olunub.

Müvafiq kafedra iclaslarında ilkin müzakirəsi təşkil olunan iddiaçılar dissertasiya işinin elmi aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, əsas elmi yenilikləri haqqında məlumat verib, işin qısa məzmunu ilə iştirakçıları tanış edib, həmçinin verilən sualları cavablandırıblar.

İclaslarda təqdim olunmuş dissertasiya işləri tamamlanmış elmi tədqiqat işi kimi yüksək qiymətləndirilib, fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb.



### Doktorant Tamara Atakişiyevanın dissertasiya işinin ilkin müzakirəsi

Dissertasiya işinin adı: Həmidə Məmmədquluzadə və Banin yaradıcılığında memuar janrın epistemioloji təhlili
Elmi rəhbər: filologiya elmləri doktoru, professor Asif Hacıyev



### Doktorant Nəzrin Rzayevanın dissertasiya işinin ilkin müzakirəsi

Dissertasiya işinin adı: Söhrab Tahirin yaradıcılığı
Elmi rəhbər: filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli



### Doktorant Asəf Kazımovun dissertasiya işinin ilkin müzakirəsi

Dissertasiya işinin adı: Ali təhsil sahəsində insan resurslarının idarə edilməsinin təşkilinin təkmiləşdirilməsi istiqamətləri
Elmi rəhbər: iqtisad elmləri doktoru, professor Rövşən Quliyev



### Dissertant Aynur Həsənovanın dissertasiya işinin ilkin müzakirəsi

Dissertasiya işinin adı: XX əsrdə Azərbaycan Yazıçılar Birliyindəki ədəbi müzakirələrin yaradıcılıq prosesləri və ədib talelərinə təsiri
Elmi rəhbər: akademik Rafael Hüseynov



### Dissertant Bənövşə Əsgərovanın dissertasiya işinin ilkin müzakirəsi

Dissertasiya işinin adı: Müasir ingilis dilində mətnin informasiya strukturunda qrammatikanın rolu
Elmi rəhbər: filologiya elmləri doktoru, professor Azad Məmmədov



### Dissertant Könül Əfəndiyevanın dissertasiya işinin ilkin müzakirəsi

Dissertasiya işinin adı: Müasir dövrdə Azərbaycan cəmiyyətində tibbi-sosial münasibətlərin sosial-fəlsəfi təhlili
Elmi rəhbər: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Mətləb Mahmudov

## Professor Qorxmaz Quliyevin yeni kitabının təqdimatı keçirilib




Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru Qorxmaz Quliyevin "Açırıq qapıları, örtürük qapıları, keçirik qapılardan" adlı kitabının təqdimatı keçirilib. Tədbirdə kitabın çap olunmasının həm filoloqlar və elmi ictimaiyyət, həm də geniş oxucu kütləsi üçün əhəmiyyəti vurğulanıb.

Təqdimat mərasimində filologiya elmləri doktoru, professor Cavanşir Yusifli, Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova, kafedranın professoru Asif Hacıyev, İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyev, Humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov, Sosial işin təşkili kafedrasının müdiri Tünzalə Verdiyeva çıxış edərək kitabda yer alan məqalələr haqqında fikirlərini bölüşüb, müəllifə uğurlar arzu ediblər.

Kitabda Qorxmaz Quliyevin ədəbiyyatşünaslığın müxtəlif problemlərinə həsr olunmuş məqalələri toplanıb.

## Professor Asif Hacıyevin Rusiyada yeni dərs vəsaitləri dərc edilib




Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru Asif Hacıyevin Rusiya Federasiyasının ali təhsil müəssisələrinin tələbələri üçün yeni dərs vəsaitləri dərc olunub.

"XX və XXI əsrlərin qovşağında rus nəsri. Əsas istiqamət və cərəyanlar" (Русская проза рубежа XX и XXI веков. Основные направления и течения) adlı tədris-metodik vəsaitdə iki əsrin qovşağında müasir rus nəsrinin tarixi tipologiyası, mövzu və motivləri, müasir ədəbi prosesin ümumi səciyyəsi və əsas inkişaf meyilləri tədqiq olunub.

İkinci kitab rus və keçmiş postsovet xalqları ədəbi prosesinin mühüm hadisəsi olan mifopoetik nəsr yaradıcılığına həsr edilib. "XX əsrin ikinci yarısı rus nəsri. Mifopoetika məsələləri" (Русская проза второй половины XX века. Вопросы мифопоэтики) adlı dərs vəsaitində keçən əsrin ikinci yarısı rus nəsrinin yaradıcılıq tipologiyası, ideya-estetik məzmunu və bədii xüsusiyyətləri mifopoetik aspektdə nəzərdən keçirilib.

## Əməkdaşlarımızın "Baytlar kainatı" adlı dərs vəsaiti çap olunub




İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev, Riyaziyyat və informatika kafedrasının müdiri Qabil Əliyev və kafedranın müəllimi Elçin Həsənovun "Baytlar kainatı və 8 bitdən 10.000.000.000.000-a qədər" adlı dərs vəsaiti çapdan çıxıb.

Dərs vəsaiti informasiya texnologiyaları sahəsində son yeniliklərə, təhlükələrin təsnifatı, ziyanverici proqramlar, virusların növləri və onların əlamətləri, destruktiv imkanları məsələlərinin araşdırılmasına həsr olunub. Kitab 13 fəsildən ibarətdir. Hər fəsildə kompüter texnologiyaları ilə bağlı icmal xarakterli müasir məlumatlar toplanıb. Xüsusilə yeni yaradılan virus növləri, onların destruktiv imkanları, vura biləcəyi zərərlərin xarakteri araşdırılıb. Vəsaitdə eyni zamanda müxtəlif kompüter texnologiyaları araşdırılıb və faktoloji məlumatlar əlavə edilib.

Dərs vəsaiti kompüter texnologiyaları və informasiya təhlükəsizliyi istiqamətində müasir faktların toplanması baxımından əhəmiyyətlidir, İKT yönümlü ixtisaslarda təhsil alan tələbələr üçün faydalıdır.

## Əməkdaşımızın "Publisistik düşüncələr" adlı kitabı çap olunub




Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi Leyla Məmmədəliyevanın "Publisistik düşüncələr" adlı kitabında müəllifin müxtəlif illərdə dövri mətbuatda dərc olunmuş publisistik məqalələri toplanıb. Kitabda "Müstəqillik illərində publisistikamızda ümumilli lider Heydər Əliyev obrazı" (Xalq yazıçıları Anar və Elçinin əsərləri əsasında), Azərbaycanda publisistikanın təşəkkülü və inkişafı geniş şəkildə işıqlandırılıb. Müstəqillik dövründə yazıb-yaradan xalq yazıçıları Anar, Elçin, akademiklər Nərgiz Paşayeva, Nizami Cəfərov, alimlər Qorxmaz Quliyev, Fərhad Mədətov, Səfər Məmmədov, Natəvan Dəmirçioğlu, Aslan Qəhrəmanlı, Dünyamalı Vəliyev, şairlər Bəxtiyar Vahabzadə, Rəşad Məcid, Nuridə Atəşi, Azadə Talehin bədii, elmi və publisistik yaradıcılığı tədqiq və təhlil edilib.

## Əməkdaşlarımızın tədqiqat işi nüfuzlu Springer nəşriyyatı tərəfindən çap olunub




Covid-19 pandemiyasının Avropa ölkələrinə təsirindən bəhs edən və redaktorları tanınmış professorlar Louise Dalingwater (Sorbonne Universiteti, Fransa), Vanessa Boullet (Lotaringiya Universiteti, Fransa), Iside Costantini (Sorbonne Universiteti, Fransa) və Paul Gibbs (Middlesex Universiteti, İngiltərə) olan The Unequal Costs of Covid-19 on Well-being in Europe (Human Well-Being Research and Policy Making) adlı kitabın 8-ci fəsli Azərbaycan Universitetinin Sosial işin təşkili kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Tünzalə Verdiyeva və kafedranın müəllimləri Aygün Muradlı və Nərgiz Hüseynovanın "Impact of the Covid-19 pandemic on the well - being of children with disabilities and their parents in Azerbaijan" adlı elmi araşdırmalarına həsr olunub.
Dünyanın nüfuzlu elmi nəşriyyatlarından biri olan "Springer" tərəfindən çap olunan kitab hazırda dünyanın ən böyük onlayn alış-veriş platformalarından biri olan "Amazon"da satışdadır.

## Səfər Kəlbixanlının yeni kitabı çap olunub




Azərbaycan Universitetinin Humanitar fənlər fakültəsinin dekanı, yazıçı-publisist, filologiya elmləri namizədi, dosent Səfər (Məmmədov) Kəlbixanlının "Son yolçuluq" adlı hekayə kitabı işıq üzü görüb.
Kitab "Mütərcim" Nəşriyyat-poliqrafiya Mərkəzi tərəfindən çap olunub.
Kitabda "Cinlər dərəsində toy", "Son yolçuluq", "Qoca çinarın naləsi", "Umud" hekayələri yer alıb.
Kitaba ön sözü filologiya elmləri doktoru, professor Qorxmaz Quliyev yazıb. Professor qeyd edib ki, Səfər Kəlbixanlının hekayələri ilk növbədə mənəvi-əxlaqi dəyərlərin aşınmasına görə bu nizamın pozulmasına və bunun qarşısıalınmaz və geriyədönməz fəsadlarına həsr olunub.
Qeyd edək ki, Səfər (Məmmədov) Kəlbixanlı 50-dən çox elmi məqalə, 1 dərsliyin həmmüəllifi, 1 metodik vəsait, Y.Polyakovun "Süddə çəpiş" romanının tərcüməçilərindən biri, V.Nabokovun "Maşenka", "Lujinin müdafiəsi", "Obskur kamerası" romanlarının tərcüməçisidir. 2013-2014-cü il Prezident təqaüdçüsüdür, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.
148 səhifəlik "Son yolçuluq" kitabı müəllifin sayca 5-ci kitabıdır.

## Professor Akif Musayev vəfat edib



Görkəmli iqtisadçı alim, AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru vəzifəsini icra etmiş professor Akif Fərhad oğlu Musayev vəfat edib.
Akif Fərhad oğlu Musayev 1947-ci ildə Füzuli rayonunun Qorgan kəndində anadan olub. 1971-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun aspiranturasına daxil olub. 1977-ci ildə iqtisadi-riyazi üsullar ixtisası üzrə fəlsəfə doktoru, 1992-ci ildə isə xalq təsərrüfatı və onun sahələrinin (sənaye) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili ixtisası üzrə elmlər doktoru elmi dərəcələrini alıb. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib.
Akif Musayev əmək fəaliyyətinə 1967-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunun (indiki İdarəetmə Sistemləri İnstitutu) İqtisadi-riyazi modellər laboratoriyasında başlayıb. 1976-1980-ci illərdə Kibernetika İnstitutunda baş elmi işçi, 1980-1991-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) baş müəllim, dosent, 1991-1999-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment kafedrasının müdiri vəzifələrində çalışıb. Ölkə başçısının 1994-cü il 24 sentyabr tarixli Fərmanı ilə yaradılmış və 1998-ci il aprelin 11-dək fəaliyyət göstərmiş Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının üzvü kimi ölkədə özəl təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və dövlət qeydiyyatı mexanizminin yaradılması və həyata keçirilməsi ilə bağlı işlərin təşkilində yaxından iştirak edib.
Akif Musayev 1999-cu ildə Vergilər Nazirliyi Tədris Mərkəzinin, eyni zamanda, 1999-2000-ci illərdə Baş Dövlət Vergi Müfəttişliyinin Analitik İnformasiya idarəsinin rəisi, 2000-2007-ci illərdə Vergilər Nazirliyi Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2001-2007-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Vergi və vergi qoyma kafedrasının rəhbəri, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru, 2011-2013-cü illərdə Vergilər Nazirliyi Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2013-2015-ci illərdə Vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri vəzifələrində çalışıb. 2016-2020-ci illərdə İqtisadiyyat İnstitutunun İqtisadi tədqiqatların riyazi təminatı şöbəsinin müdiri, 2020-ci ildən vəfatına kimi isə İqtisadiyyat İnstitutunun nəzdində Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri olub.
Akif Musayev 400-dən artıq elmi əsərin, bir çox monoqrafiya, dərslik və dərs vəsaitinin, fənn proqramlarının müəllifi idi. Onun elmi kadrların yetişdirilməsindəki xidmətləri də diqqətə layiqdir.
Akif Musayevin tədqiqat istiqamətləri nəqliyyat proseslərinin modelləşdirilməsi, maşınqayırma və neft sənayesinin qarşılıqlı fəaliyyətinin modelləşdirilməsi, fiskal siyasətin modelləşdirilməsi, iqtisadiyyatda riyazi modelləşdirmə və proqnozlaşdırma, vergilərin iqtisadi problemlərinin elmi-tədqiqi istiqaməti və digər bu kimi sahələri əhatə edirdi.
Akif Musayev Prezident İlham Əliyevin 2007-ci il 9 fevral tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə medalı"na, 2018-ci il 16 oktyabr tarixli Sərəncamı ilə isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb. Eyni zamanda, müxtəlif illərdə AMEA-nın və Vergilər Nazirliyinin fəxri fərmanları ilə təltif edilib.
Həmçinin Britaniyanın Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi və Amerikanın Şimali Karolina Bioqrafiya İnstitutunun idarə heyətləri tərəfindən dünya elm və təhsilinə verdiyi töhfələrə görə "Beynəlxalq Şərəf Diplomu" və "Görkəmli lider mükafatı" ilə təltif olunub.
Akif Musayev bir sıra jurnalların redaksiya heyətinin üzvü, Gürcüstan Qafqaz Universitetinin fəxri doktoru idi.
Azərbaycan Universitetinin kollektivi adından ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.
Akif müəllimin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.
Allah rəhmət eləsin!

# Azərbaycan Universitetində tədrisi aparılan bakalavriat ixtisasları

**I qrup**

İnformasiya təhlükəsizliyi
İnformasiya texnologiyaları
Kompüter mühəndisliyi*

** Bu ixtisasın tədrisi Azərbaycan Universiteti və Ukraynanın Xarkov Milli Radioelektronika Universiteti (XNURE) ilə birgə Beynəlxalq İkili Diplom Proqramı əsasında həyata keçirilir.*

**II qrup**

Beynəlxalq ticarət və logistika
Biznesin idarə edilməsi*
İqtisadiyyat*
Maliyyə*
Marketinq*
Menecment
Mühasibat*
Turizm işinin təşkili

**Bu ixtisaslara qəbul həm Azərbaycan, həm də ingilis bölməsi üzrə aparılır. İngilis bölməsinə qəbul olan tələbələrin təhsil müddəti ingilis dili hazırlığı üçün 1 (bir) tədris ili ayrılmaqla 5 ildir.*

**III qrup**

Təhsildə sosial-psixoloji xidmət
Beynəlxalq münasibətlər
Dövlət və ictimai münasibətlər
Fəlsəfə
Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
Filologiya (İngilis dili və ədəbiyyatı)
Politologiya
Regionşünaslıq (Avropa ölkələri üzrə)
Tarix
Tərcümə (İngilis dili)
Muzey, arxiv işi və abidələrin qorunması
Sosial iş

# Azərbaycan Universitetində tədrisi aparılan magistratura ixtisasları

**Filologiya**

Ədəbiyyatşünaslıq (Amerika ədəbiyyatı)
Ədəbiyyatşünaslıq (İngilis ədəbiyyatı)
Azərbaycan dili
Azərbaycan ədəbiyyatı
Dilşünaslıq (ingilis dili)

**Kompüter mühəndisliyi**

Kompüter mühəndisliyi

**Tarix**

Azərbaycanın qədim və orta əsrlər tarixi
Azərbaycanın yeni və ən yeni tarixi

**İqtisadiyyat**

İqtisadiyyatın hüquqi tənzimlənməsi
Turizmin iqtisadiyyatı

**Tərcümə**

Tərcümə (ingilis dili)

**Maliyyə**

Bank işi
Vergi və vergiqoyma

**İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi**

Kibertəhlükəsizlik

**Sosial iş**

Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş
Gənclərlə iş

**MBA proqramı (Azərbaycan və ingilis bölmələri üzrə)**

Biznesin təşkili və idarə edilməsi (maliyyə sahəsi üzrə)
Biznesin təşkili və idarə edilməsi (vergi üzrə)
Biznesin təşkili və idarə edilməsi (mühasibat uçotu üzrə)
Biznesin təşkili və idarə edilməsi (menecment üzrə)
Biznesin təşkili və idarə edilməsi (marketinq üzrə)*

** Bu ixtisasın tədrisi Azərbaycan Universiteti və İtaliyanın Tuscia Universiteti ilə birgə Beynəlxalq İkili Diplom Proqramı əsasında həyata keçirilir.*

# Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertantura ixtisasları

*(Qəbul ödənişli əsaslarla və qiyabi formada həyata keçirilir)*

**İqtisad elmləri**

İqtisadi fəaliyyət növləri
Ümumi iqtisadiyyat
Müəssisələrin təşkili və idarə edilməsi
Sahə iqtisadiyyatı

**Tarix elmləri**

Ümumi tarix
Vətən tarixi
Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları

**Filologiya elmləri**

Tətbiqi dilçilik
Dil nəzəriyyəsi
German dilləri
Azərbaycan ədəbiyyatı
Dünya ədəbiyyatı
Müqayisəli - tarixi və müqayisəli tipoloji dilçilik

**Sosial iş**

Fəlsəfə elmləri
Bilik fəlsəfəsi

# Yeni Elmi Jurnal




"Social Issues" jurnalı sosial elmlər üzrə nəzəriyyələr, metodlar və onların tətbiqlərinə həsr olunmuş, rəyləşdirilən açıq elmi jurnaldır.
"Social Issues" jurnalının məqsədi sosial elmlərin müxtəlif sahələri arasında maneələri aradan qaldırmaq və müasir ümumi tədqiqat metodlarını inkişaf etdirməkdir. Jurnal sosiologiya, mədəni antropologiya, etnoqrafiya, sosial coğrafiya, mədəniyyətşünaslıq, sosial siyasət, sosiolinqvistika və sosial tarix, gender tədqiqatları və s. daxil olmaqla sosial elmlərin müxtəlif istiqaməti üzrə məqalələri qəbul edir.
Jurnal həmçinin Sosial iş və Sosial iş təhsili məsələlərinə həsr edilmiş məqalələri də qəbul edir.


AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN PAYTAXTI
270 illik şah əsər
ŞUŞA

"Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir!".

Ümummilli lider Heydər Əliyev

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir!
Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Prezident İlham Əliyev

*Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulan və bu il 270 illiyini qeyd etdiyimiz Şuşa şəhəri təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Özünəməxsus görkəmi, ədəbi-bədii mühiti, yetişdirdiyi böyük şəxsiyyətləri ilə adını Azərbaycanın tarixinə qızıl hərflərlə yazdıran Şuşanı "Qarabağın mədəniyyət mərkəzi", "Azərbaycan musiqisinin beşiyi", "Şərqin konservatoriyası" adlandırırlar.*

*Xurşidbanu Natəvan, Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi böyük şəxsiyyətlər yetişdirən Şuşa, Cabbar Qaryağdıoğlu, Üzeyir Hacıbəyov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Qurban Pirimov kimi görkəmli incəsənət xadimlərinin də vətənidir.*

*Həm tarixi - mədəni irsi, həm də yerləşdiyi coğrafi mövqeyi ilə Azərbaycan üçün olduqca strateji əhəmiyyətə malik Şuşanın 1992-ci ildə Ermənistan tərəfindən işğal olunması Azərbaycan tarixinin ən kədərli və sarsıdıcı hadisələrindən biri idi. 28 il 6 ay - 10 min 386 gün sonra, 2020-ci il noyabrın 8-də üçrəngli bayrağımızın Şuşa şəhərinə sancılması 44 günlük Vətən müharibəsinin gedişinə ciddi təsir göstərdi, həm hərb meydanında, həm də diplomatiya sahəsində ölkəmizin uğurlarını şərtləndirdi. Şuşanın işğaldan azad olunduğu 8 noyabr günü Azərbaycan tarixinə ən sevincli, ən şanlı, ən qürurverici günlərdən biri kimi yazıldı.*

**Şuşa qalasının salınması**

Şuşa şəhərinin əsasının qoyulması Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin (1748-1763) adı ilə bağlıdır. 1748-ci ildə inşa edilən Bayat və 1751-1752-ci illərdə inşa edilən Şahbulaq qalalarının dövrün müdafiə tələblərinə cavab vermədiyini görən Pənahəli xan Şuşa yaylasını yeni iqamətgah yeri seçmiş, "dağların içində, möhkəm və keçilməz yerdə əbədi və sarsılmaz qala" tikdirmək qərarına gəlmişdi. Yeni şəhər-qalanın bünövrəsi xanlığın mərkəzi hələ Şahbulaq qalasında olarkən, 1752-ci ildə qoyulmuş, dəniz səviyyəsindən 1300-1600 m hündürlükdə yerləşən əlçatmaz dağ yaylasında tikinti işlərinə başlanılmışdı.
Şəhər-qala ilk illərdə öz banisinin adı ilə Pənahabad, daha sonra isə yerləşdiyi relyefə uyğun olaraq Qala, bir müddət sonra Şuşa qalası və sonrakı dövrdə Şuşa adlandırıldı. Şəhər üç tərəfdən sıldırım qayalarla, dördüncü tərəfdən isə möhkəm qala divarları ilə əhatə olunmuş, uzun müddət alınmaz qala kimi şöhrət qazanmışdı.

**Qala divarları**

İstər Pənahəli xan, istərsə də oğlu İbrahimxəlil xan (1763-1806) Şuşanı hərbi cəhətdən möhkəmləndirmək üçün onun təbii istehkam olması ilə kifayətlənməyərək bir sıra müdafiə qurğuları da inşa etdiriblər. Bu qurğular içərisində qala divarları xüsusi əhəmiyyət kəsb edirdi. Şəhərin təhlükəsizliyini təmin etmək üçün onun yalnız şimal hissəsində qala divarları tikdirmək kifayət edirdi.
Daimi hücum təhlükəsi Pənahəli xanı bu işi sürətlə görməyə məcbur etmiş, tikintini tez başa çatdırmaq üçün xeyli işçi səfərbər olunmuşdu. Şuşanın ilk qala divarları çox sürətlə və qısa müddətdə tikildiyindən möhkəmliyinə diqqət yetirilməmiş, tezliklə yararsız hala düşmüşdü. Elə bunun nəticəsi idi ki, İbrahimxəlil xanın dövründə Şuşanın ətrafına yeni qala divarlarının çəkilməsinə ehtiyac yaranmışdı. Uzunluğu 2,5 km olan bu divarların tikintisinə 1783-1784-cü illərdə başlanmış və üç il ərzində başa çatdırılmışdı. Şuşanın İbrahimxəlil xanın dövründə tikilmiş qala divarları nisbətən daha möhkəm idi.

**Şuşanın qapıları**

Pənahabad-Şuşa şəhərinin üç qapısı vardı. Üçü də qədim Azərbaycan ellərinə açılırdı: Gəncə qapısı, İrəvan qapısı, Ağoğlan qapısı. Qapılar axşamlar bağlanır, səhərlər açılır və həmişə nəzarətdə saxlanırdı. Gəncə qapısı əsas qapı sayılır, Şuşanı




*Şuşanın qapıları: Gəncə qapısı*

Qarabağ mahallarından biri olan Çelabert vasitəsi ilə Gəncə ilə bağlayırdı. İrəvan qapısı şəhərin qərb hissəsində, Ağoğlan qapısı isə şərq hissəsində yerləşirdi. Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd edilir.

**Şuşanın məhəllələri**

Zaman keçdikcə, Şuşa qalası böyüyüb inkişaf etdikcə əhali sıxlaşır və tədricən məhəllələr əmələ gəlirdi. Məhəllələrin adları orada yaşayan əhalinin ictimai vəziyyəti, məşğul olduqları peşə və sənət sahələri, yerləşdiyi sahənin xüsusiyyəti, əhalinin haradan köçüb gəldiyi ilə əlaqədar idi və bütün məhəllələrin adları Azərbaycan xalqına məxsus idi: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl Qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə.
Məhəllələrin doqquzu aşağı məhəllə, qalan səkkizi isə yuxarı məhəllə sayılırdı. Hər məhəllədə hamam, məscid və bulaq vardı.
Şuşa qalasında salınan ilk məhəllə Çuxur məhəllə olub. Bülbülün Şuşadakı ev-muzeyi Çuxur məhəlləsində, Cabbar Qaryağdıoğlunun evi Seyidli məhəlləsində yerləşir. Şuşanın yuxarı məhəllələrindən biri olan Köçərli, Firudin bəy Köçərlinin nəslinin adı ilə bağlıdır. Quyuluq məhəlləsi su quyuları ilə bol olduğundan belə adlandırılıb. Qarabağ xanlığının baş vəziri, şair Molla Pənah Vaqif Saatlı məhəlləsində yaşamış, mədrəsədə dərs demişdi. Mamayi məhəlləsinin əsas əhalisi Dəmirçihəsənli mahalının Mamayi və Xocavənd obalarından köçüb gəlmişdi.

**Ticarət əlaqələri**

Şuşa uzun müddət Qarabağın həm inzibati mərkəzi, həm də çox mühüm iqtisadi mərkəzi olub. Pənahəli xanın dövründə böyük və güclü sədd ilə yanaşı, burada çoxlu abidələr tikilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Şuşada "Pənahabadi" adlanan gümüş sikkə zərb edilir, Şuşalı tacirlər İran şəhərləri, Osmanlı dövləti, Rusiya, Avropa ölkələri ilə ticarət əlaqələri saxlayırdı. Şuşalı tacirlər Almaniyanın məşhur Leypsiq, Rusiyanın Nijni-Novqorod yarmarkalarının daimi iştirakçıları idilər.
Şuşada Bazarbaşı deyilən yerdən Şeytanbazara qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. Mərkəzdən keçən və qalanın eni boyunca uzanan bu düz küçə ən böyük ticarət obyektlərindən idi. Şuşanın ən məşhur tacirlərinin arşın malı, ayaqqabı, paltar, dərzi, çəkməçi, qəssab, tərəvəz, bəzzaz, nüsxəbənd, papaqçı, əttar dükanları burda yerləşirdi. Küçənin həm başlanğıcında, həm də qurtaracağında kiçik meydança vardı.
Şuşa Azərbaycanda xalça istehsalının da mühüm

mərkəzlərindən biri idi. XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına tələbatın artması Şuşada xalçaçılığın daha da inkişaf etməsinə səbəb oldu. Şuşa xalçaları bədii xüsusiyyətlərinə görə iki böyük qrupa - ornamentli və süjetli xalçalara bölünürdü. Əsasən, XVIII-XIX əsrlər üçün xarakterik olan ornamentli Şuşa xalçalarında nəbati ünsürlər üstünlük təşkil edirdi.
Şuşada boyaqçılıq, gön-dəri məmulatı istehsalı və metalişləmə sənətləri də yüksək inkişaf səviyyəsinə çatmışdı. Şuşalı boyaqçılar müxtəlif növ bitkilərdən istifadə edərək 50-yə qədər rəng və rəng çaları almağı bacarırdılar. XIX əsrin sonu - XX əsrin əvvəllərində Şuşada 8 boyaqxana fəaliyyət göstərirdi. Elə həmin dövrdə şəhərdə 200 nəfərə yaxın sənətkar gön-dəri məmulatı istehsalı ilə məşğul olurdu. XIX əsrin sonlarında Şuşada 78 nəfər zərgər müxtəlif növ baş, boyun, sinə, qulaq, bel, qol və barmaq üçün zərgərlik məmulatları hazırlayırdı.
Şuşa şəhəri özünün sənətkarlıq məhsulları ilə də şöhrət qazanmışdı. XIX əsrin əvvəllərində şəhərdə 50-dən artıq sənət sahəsi üzrə ixtisaslaşmış böyük sənətkarlar ordusu fəaliyyət göstərirdi. Onların arasında toxucular, papaqçılar, çəkməçilər, dərzilər, dülgərlər, həllaclar çoxluq təşkil edirdi. Şəhərdə toxuculuq və xalçaçılıq xüsusilə yüksək inkişaf səviyyəsinə çatmışdı. XIX əsrin əvvəllərində burada müxtəlif növ parçalar istehsal edən 500 toxucu dəzgahı işləyirdi. Kapitalist münasibətlərinin sürətli inkişafı Şuşada ipəkçiliyin fabrik-zavod istehsalı səviyyəsinə yüksəlməsinə gətirib çıxardı. XIX əsrin 60-cı illərində şəhərdə 16 ipəksarıma fabriki fəaliyyət göstərirdi.

**Tarix-memarlıq abidələri**
Şuşa qədim tarixi-dini mədəniyyət abidələri ilə Azərbaycan tarixində özünəməxsus yer tutur. Milli memarlıq üslubu ilə seçilən, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi Şuşa şəhərində 549 qədim yaşayış binası, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə, 17 məscid, 17 məhəllə bulağı, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr olub. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilmişdir.
Xəzinə qala mağarası, Daşaltı dərəsi, Cıdır düzü, Xan, Qaxal mağaraları, Şuşa qalası, Xurşidbanu Natəvanın, Mehmandarovun, Mir Möhsün Nəvvabın ev muzeyləri, İbrahim xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, Gəncə darvazası, Gövhər ağa məscidi, əsas ticarət mərkəzi olan "Rastabazar", möhtəşəm qala divarları, memarlıq üslubu ilə inşa olunan digər tikililər şəhərə gələn qonaqları hər zaman valeh edib.
Şuşanın tarixi-dini abidələri arasında Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidlərinin xüsusi yeri vardır. Bu iki mühüm dini mərkəz Şuşanın tarixində silinməz izlər qoyan Qarabağ hökmdarı İbrahimxəlil xanın qızı Gövhərağa, Gövhərnisə bəyimin (1790-1888) adı ilə bağlıdır. Hər iki məscid XIX əsrdə Gövhərağanın sifarişi və maddi dəstəyi ilə Qarabağda əksər məscidlərin də memarı olan Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Yuxarı Gövhərağa məscidinin minarələrinin naxışlarını isə digər qarabağlı məşhur Mir Möhsün Nəvvab işləmişdi. Erməni işğalı zamanı hər iki məscid dağıdılmışdı. Şuşa azad olunandan sonra 2020-ci il noyabrın 10-da Yuxarı Gövhərağa məscidinin minarəsindən azan verilmiş, noyabrın 13-də isə ilk cümə namazı qılınmışdı. Hazırda Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işləri aparılır.
Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Məscid Şuşanın Saatlı məhəlləsində tikildiyi üçün belə adlanır. Saatlı məhəllə məscidi olsa da, şəhərin digər məhəllə məscidlərindən həm həcmi, həm memarlıq quruluşu, həm də dekorativ tərtibatı ilə seçilirdi.
XVIII əsr Azərbaycan ədəbi mühitində xüsusi yer tutan Molla Pənah Vaqifin (1717-1797) yaradıcılığının böyük hissəsi məhz Şuşa ilə bağlı olmuşdur. İbrahimxəlil xanın vəziri vəzifəsinə də yüksələn Vaqifin ədəbi və ictimai fəaliyyətini əbədiləşdirmək üçün ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Cıdır düzünə yaxın ərazidə, şairin məzarı üzərində ucaldılmış məqbərə Şuşanın görkəmli tikililərindən hesab olunur. Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də məqbərənin açılışı olmuş və məhz bu səfər çərçivəsində ümummilli lider Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermişdi. "Vaqif Poeziya Günləri" həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Cıdır düzündə yekunlaşardı.
1992-ci ildən 2020-ci ilə qədər erməni işğalında qalan abidə xeyli ziyan görmüş və burada sərgilənən bütün eksponatlar məhv edilmişdir. Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra "Vaqif Poeziya Günləri" yenidən öz yurdunda keçirilir. 2021-ci ilin avqust ayında muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.





Şuşa








**Qafqazın musiqi mərkəzi**
XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulmuşdu.

**Şuşanın görkəmli şəxsiyyətləri**
Şuşa, Azərbaycanın mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də görkəmli və istedadlı şəxsiyyətlərin, sənətkarların, yazıçıların, bəstəkarların, xanəndələrin vətənidir. Şuşadan kimlər keçməyib ki? Azərbaycanın mədəniyyət tarixində mühüm rol oynayan şəxsiyyətlər – müsəlman Şərqində ilk operanın müəllifi, Azərbaycan himninin bəstəkarı Üzeyir Hacıbəyli və sonuncu Qarabağ xanının qızı, şairə Xurşidbanu Natəvan, Azərbaycan və Türkiyənin ictimai xadimi və siyasətçisi, jurnalist, pedaqoq, yazıçı və türkoloq Əhməd bəy Ağaoğlu bu şəhərdə anadan olublar. Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli burada yaşayıb yaradıb.
Azərbaycanın orta əsrlər ənənələri ruhunda, yeni tipli, realist, şifahi xalq poeziyasına yaxın şeirlər yazmış görkəmli şairlərindən olan Molla Pənah Vaqifin də həyat və yaradıcılığının əhəmiyyətli bir dövrü Qarabağ və Şuşa ilə bağlıdır. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri olan Molla Pənah Vaqif təxminən 27 il Qarabağ sarayının ən mötəbər və uzaqgörən dövlət xadimi olub, öz müdrikliyi və intellekti ilə xalq arasında geniş şöhrət qazanıb.
Şuşa Azərbaycan mədəniyyətinə Mir Möhsün Nəvvab kimi musiqişünas, Cabbar Qaryağdıoğlu, Xarrat Qulu, Sadıqcan, Məşədi İsi, Hacı Hüsü, Keçəçi Məmməd, İslam Abdullayev, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Sara Qədimova, Şövkət Ələkbərova, Arif Məmmədov, Qədir Rüstəmov, Nəzakət Teymurova kimi xanəndələr, Bülbül, Rəşid Behbudov kimi dünya şöhrətli vokalistlər, yazıçı, dramaturq, publisist, Zülfüqar Hacıbəyov, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov kimi istedadlı bəstəkarlar bəxş edib.

**Şuşanın ədəbi məclisləri**
Şuşada əvvəllər xanın saraylarında, sonralar isə şəxsi evlərdə ədəbi məclislər fəaliyyət göstərib. Ədəbi-bədii fikrin inkişafında böyük rol oynayan həmin məclislərdə şeirlər, məsnəvilər yazılır, ədəbi müzakirələr aparılır, şeir normaları öyrədilir, Azərbaycan və Şərq klassiklərinin əsərləri, məclis üzvlərinin yeni şeirləri müzakirə olunur, ədəbiyyat, tarix, fəlsəfə, musiqi və bu kimi məsələlərə dair söhbətlər aparılırdı. İlk növbədə şeir-sənət məktəbi olan Şuşa məclislərində məşhur xanəndə və musiqiçilər də iştirak edirdi.
XIX əsr Şuşa ədəbi məclisləri özünün çoxyönlü funksiyası, ədəbiyyata, mədəniyyətə, maarifə verdiyi töhfələri ilə fərqlənir. Mənbələrdə ən çox adı çəkilən Şuşa məclisləri "Məclisi-üns" və "Məclisi-fəramuşan"dır.
"Məclisi-üns" ədəbi məclisi 1864-cü ildə Şuşada şairlər Mirzə Rəhim Fəna və Hacı Abbas Agahın təşəbbüsü ilə dövrün görkəmli ziyalısı Mirzə Əli Qazinin mədrəsəsində təşkil olunub. Məşğələləri bir müddət sonra Hacı Abbas Agahın evində keçirilib, 1872-ci ildən isə Xan qızı Natəvanın sarayında davam etdirilib. Otuzdan çox üzvü olan məclisin rəhbəri Xurşidbanu bəyim idi. Qarabağın görkəmli xanəndə və sazəndələri də məclisin yığıncaqlarında fəal iştirak edirdilər. 1897-ci ildə Xurşidbanu Natəvanın vəfat edənə qədər "Məclisi-üns" öz fəaliyyətini davam etdirib.
"Məclisi-fəramuşan" ədəbi məclisi isə 1872-ci ildə Şuşada Mir Möhsün Nəvvabın təşəbbüsü ilə onun mənzilində təşkil olunub. Məclisin rəhbəri Mir Möhsün Nəvvab, üzvləri isə "Məclisi-üns"ün "fəramuş etdiyi", yəni unutduğu şairlər olublar. Şairlərlə yanaşı, Qarabağın məşhur xanəndə və sazəndələri də məclisin yığıncaqlarında iştirak edirdilər. 40-a yaxın üzvü olan "Məclisi-fəramuşan" 1919-cu ilədək fəaliyyət göstərib.

**Şuşanın turizm imkanları**
Şuşanın iqtisadiyyatında turizm xüsusi yer tutub, Şuşa öz qədimiliyi və təmiz havası ilə keçmiş SSRİ-nin əsas turizm mərkəzlərindən biri olub. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Soyuqbulaq, Yüzbulaq, Qırxbulaq, Çarıqbulaq, Cıdır düzü və digər nadir təbiət möcüzələri baxımından həmişə diqqət çəkib.
1970-ci ildə fəaliyyətə başlayan Şuşa sanatoriyası mədə-bağırsaq xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşmışdı. Turşsu istirahət və müalicə zonası 1992-ci ilədək fəaliyyət göstərib. XXI əsrdə "Ev turizmi" anlayışı Azərbaycanın bölgələrində yeni-yeni təşəkkül tapsa da, turizmin bu növü Şuşada hələ ötən əsrin ortalarından mövcud





*Şuşa, Cıdır düzü*

olub. Füsunkar gözəlliyi ilə seçilən Cıdır düzündə 1992-ci ilədək hər il may ayında "Xarı bülbül" musiqi festivalı keçirilib. Şuşada məktəblilərin yay tətilində dincəlməsi üçün nəzərdə tutulan pioner düşərgələri və digər turizm müəssisələri də fəaliyyət göstərib.

1990-cı illərin əvvəllərində Şuşanın, Dağlıq Qarabağın və ətraf rayonların işğalı Azərbaycanı təkcə ərazi baxımından deyil, həm də iqtisadi, sosial və mədəni itkilərlə üzləşdirdi. Buraya turizm sektorundakı maddi və mənəvi itkiləri də daxil etmək lazımdır.

Artıq Şuşa başda olmaqla, işğaldan azad olunan şəhər, rayon və kəndlərimizdə çox sürətlə tikinti-bərpa işləri aparılır, turizm infrastrukturunun yaradılmasına və bərpasına xüsusi diqqət göstərilir.

**Şuşa rus işğalından sonra**

1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xan ilə Rusiya generalı Pavel Sisianovun arasında imzalanmış Kürəkçay müqaviləsi ilə başlayan Rus işğalından sonra Şuşa şəhəri ciddi demoqrafik fəlakətlə üzləşmiş, digər yaşayış məntəqələri kimi, Şuşaya da ermənilərin kütləvi şəkildə köçürülməsinə başlanılmışdır. Çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti ermənilərin Qarabağda say üstünlüyünə nail olması ilə nəticələnmişdir.

Çar hökumətinin himayəsi altında olan və sayca sürətlə artan ermənilər şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa başladılar. 1905-1906-cı illərdə burada azərbaycanlılara qarşı qanlı terror və soyqırımı təşkil edilmiş, ermənilər bu əməllərini Azərbaycan Xalq Cümhuriyyəti dövründə də təkrar etməyə cəhd etmişdilər.

**Şuşa sovet dövründə**

Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı və Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan cəmi 3 il sonra Şuşa 170 illik statusundan – bütün Qarabağın mərkəzi statusundan məhrum edildi. 1923-cü ildə inzibati mərkəzi Xankəndi olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı və Şuşa şəhəri bu vilayətin tərkibinə daxil edildi. Adı sonradan Stepanakert olaraq dəyişdirilən Xankəndinin inzibati mərkəz seçilməsi ilə Şuşa ögey münasibət görməyə başladı, həm respublika, həm də vilayət rəhbərliyinin diqqətindən kənarda qaldı, öz əvvəlki şöhrətini və görkəmini itirməyə başladı. Bu addımın arxasında Azərbaycana qarşı hazırlanan məkrli planların başdan-ayağa Azərbaycan elementləri ilə dolu Şuşada həyata keçirilməsinin asan olmayacağı dururdu.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər təyin edilməsindən sonra Şuşanın sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün xeyli iş görüldü. İlk növbədə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısının alınması məqsədilə 1977-ci ilin avqust ayında Azərbaycan




*Molla Pənah Vaqifin məqbərəsinin açılışı, 1982-ci il*

SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi. Bütün Azərbaycanda tar, kamança, ud, nağara kimi musiqi alətləri istehsal edən yeganə Şərq milli musiqi alətləri fabriki Şuşada istifadəyə verildi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan mədəniyyətinin və incəsənətinin korifeyləri olan Üzeyir Hacıbəyovun, Bülbülün, Xurşidbanu Natəvanın, Mir Möhsün Nəvvabın ev muzeyləri təşkil olundu. 1982-ci ilin yanvarında Molla Pənah Vaqifin məqbərəsinin açılışı oldu. Lakin Şuşada başlanmış bu dinc quruculuq işləri uzun çəkmədi.

1988-ci ilin fevralında Xankəndində xarici ölkələrdə kök salmış erməni diasporu şəbəkəsinin maliyyəsi ilə erməni millətçiləri növbəti dəfə fəallaşdılar. İcazəsiz mitinqlərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsi tələbi irəli sürülürdü. 1988-ci ilin sentyabrında ermənilər Xankəndində yaşayan bütün azərbaycanlıları silah gücünə şəhərdən qovub çıxardı. Dağlıq Qarabağda yerləşən rus hərbi hissələrinin silah-sursatı, döyüş texnikası qanunsuz erməni hərbi birləşmələrinin, terrorçu qrupların nəzarətinə keçdi. Xankəndində baş verənlər zəncirvari reaksiya ilə bütün Qarabağı bürüdü. 1992-ci ilin fevralında Xocalı soyqırımı törədildi, mayın 8-də Şuşa şəhəri işğal olundu.

Şuşa şəhərinin işğalı müharibənin gedişində həlledici rola malik oldu. XX əsrin sonunda tarixdə görünməmiş faciəli hadisələrlə üzləşən Şuşanın övladları yerindən-yurdundan didərgin düşdü, Şuşa şəhidlər verdi, ancaq sınmadı, əyilmədi, düşmən onun ruhunu məhv edə bilmədi.

**Şuşa erməni işğalı dövründə**

İşğal dövründə erməni vandalları tərəfindən Şuşanın 600-ə yaxın tarixi memarlıq abidəsi, o cümlədən Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi dağıdılıb, yerlə-yeksan edilib, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif, kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 22 klub, 31 kitabxana, 2 kinoteatr, 8 muzey, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazası, Qafqazda yeganə Şərq musiqi alətləri fabriki dağıdılıb, buradakı nadir sənət inciləri talanıb və məhv edilib.

Şəhərin tarix muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilib.

**Şuşanın işğaldan azad olunması**

Şuşa şəhəri 8 noyabr 2020-ci il tarixində, 28 il, 6 aylıq fasilədən sonra öz övladlarına qovuşdu. Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini 44 gündə yerinə yetirən Azərbaycan ordusunun qəhrəman əsgər və zabitləri dərələrdən, meşələrdən, dağlardan keçərək dünya hərb tarixində əbədi qalacaq əməliyyatla - əlbəyaxa döyüşdə düşməni məhv edib, Qarabağın tacı olan Şuşanı azad etdilər.

Şəhərin ciddi zərər görməməsi məqsədilə yüngül silahlarla silahlanmış Azərbaycan əsgəri o, hündür, sıldırım qayaların kəsici daşlarından yapışaraq təkcə özünü yox, yaralı, hətta şəhid qardaşını kürəyində özü ilə o müqəddəs şəhərə qaldırdı, düşmənlə üz-üzə, diş-dişə gəldi, əlbəyaxa döyüşlə ona məxsus olanı geri aldı, şanlı Azərbaycan bayrağını Şuşa qalasında dalğalandırdı.

Şuşanın azad edilməsi son əsrdə Azərbaycan tarixinin ən şanlı qələbəsidir. Bu gün Azərbaycan ordusunun qazandığı döyüş təcrübəsi, xüsusilə zərgər dəqiqliyi ilə hazırlanan və böyük şücaət tələb edən Şuşa əməliyyatının təfərrüatları dünyanın nüfuzlu ekspert və hərbi-siyasi mərkəzləri səviyyəsində, hərbi təhsil ocaqlarında öyrənilir və tədris edilir. Ümumilikdə isə bu müharibə və Şuşanın işğaldan azad olunması nəinki Azərbaycanın, bütöv dünyanın hərb tarixinə qazandırılan böyük hərbi-taktiki bilik təcrübəsidir.

**Mədəniyyət paytaxtı Şuşa**

XVIII əsrdə Qarabağ xanlığının paytaxtı olan, tipik Azərbaycan şəhəri kimi formalaşan Pənahabad -Şuşa 1992-ci ildə erməni vandalları tərəfindən işğal olunana qədərki bütün dövrlərdə öz tarixi simasını olduğu kimi qoruyub saxlamışdır. Şuşa bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmuş, Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmış, burada Azərbaycanın görkəmli siyasət, mədəniyyət və ictimai xadimləri yetişmişdir.

Şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Sərəncamda qeyd olunub ki, ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad



*Şuşa, Cıdır düzü, 20 mart 2021-ci il*




*Bülbülün ev-muzeyinin açılışı, 29 avqust 2021-ci il*

olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

**Türk dünyasının mədəniyyət paytaxtı**
Şuşa şəhəri 2023-cü il üçün Türk dünyasının da mədəniyyət paytaxtı seçilmişdir. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının 2022-ci ilin mart ayında Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdur.

**2022-ci il "Şuşa ili"dir**
Prezident İlham Əliyevin 2021-ci ilin sonuncu günü - 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqa müraciətində 2022-ci ili "Şuşa İli" elan etməsi tarixi və milli-mənəvi əhəmiyyəti baxımından olduqca əhəmiyyətlidir. Cənab prezidentin sözügedən sərəncamı ölkəmizdə milli-mədəni və tarixi irsin qorunmasına, təbliğinə dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərildiyinin də nümayişidir. Sərəncam Şuşanın tarixinin, tarix-memarlıq abidələrinin dərindən araşdırılması, öyrənilməsi və diqqət mərkəzində saxlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.
Hazırda işğaldan azad olunan bütün ərazilərdə, o cümlədən mədəniyyət paytaxtımız Şuşada böyük bərpa və quruculuq işləri həyata keçirilir. Əsas məqsəd bölgənin iqtisadi inkişafına nail olmaq, ən yaxın gələcəkdə qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsini təmin etməkdir. Görülən işlər və gələcəkdə icrası nəzərdə tutulan tədbirlər, zəruri layihələr xarici yardımlar olmadan ölkəmizin bu günkü iqtisadi gücünə əsaslanan real maddi imkanlar hesabına həyata keçirilir. İndi Şuşanın, eləcə də bütün Qarabağın dirçəldilməsi qarşıda duran əsas məqsədlərdəndir. İşğaldan azad olunmuş ərazilərdə müasir yol infrastrukturunun qurulması, tarixi, dini və mədəni abidələrin bərpa edilməsi, mədəni-sosial layihələrin həyata keçirilməsi, Şuşanın Azərbaycanın və Türk dünyasının mədəniyyət paytaxtı seçilməsi, tarixi Şuşa Bəyannaməsinin imzalanması və nəhayət Dünya Azərbaycanlılarının V Qurultayının bu şəhərdə keçirilməsi bir daha sübut edir ki, Şuşa tezliklə dirçələcək, inkişaf edəcək, özünün əvvəlki şöhrətini qaytaracaq.



*Filologiya elmləri doktoru, professor Asif Hacıyev*

# ŞUŞA
# Ədəbi-mədəni mühit

*ƏDƏBİ MƏCLİSLƏR*
*"Məclisi-üns" və "Məclisi-fəramuşan"*

***Əziz şəhər Şuşanın ədəbi-mədəni mühitinə həsr edilən yazı Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) vitse-prezidenti, filologiya elmləri doktoru, Azərbaycan Universitetinin professoru Asif Hacıyevin "Şuşa: ədəbi-mədəni mühit" kitabından alıntılar əsasında (s. 125-165) hazırlanmışdır. AVCİYA-nın prezidenti Elxan Süleymanovun təşəbbüsü ilə təşkilatın "Şuşa İli"ndə həyata keçirdiyi layihələr çərçivəsində işıq üzü görən kitabda bu qədim şəhərin mədəni və ədəbi həyatının səciyyəvi xüsusiyyətlərindən, şuşalı ədiblərin və mədəniyyət xadimlərinin yaradıcılığından, Şuşa ədəbi-mədəni mühitinin milli mədəniyyətin inkişafına təsirindən, işğalın ağır nəticələrindən və 44 günlük müharibədəki tarixi zəfərdən sonra şəhərin mədəni mühitinin bərpasından bəhs edilir.***

Şuşanın XIX yüzillikdə və XX əsrin əvvəllərindəki qaynar ictimai-mədəni həyatının zənginliyini, rəngarəngliyini, burada çağlayan mədəni həyatın paytaxt şəhərlərindən geri qalmayan dolğunluğunu göstərən faktlardan biri də burada iki ədəbi məclisin: haqqında danışdığımız "Məclisi-üns"lə müvazi olaraq digər bir ədəbi dərnəyin – "Məclisi-fəramuşan"ın fəaliyyət göstərməsidir. Bu məclisin adı onunla bağlı idi ki, "Məclisi-üns"də şuşalı şairlərin hamısı təmsil olunmurdu və onlar "fəramuş olanlar" - kənarda qalıb unudulanlar və ya məclisin digər adı ilə - "xamuşan" səssiz qalanlar hesab olunurdu. Buna görə də onlar ayrıca məclis yaratmağı qərarlaşdırırlar və bu məqsədlə: "İlk dəfə Abdulla bəy Asi, Əbülhəsən Şəhid, Mirzə Əbdül Şahin, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği və qeyriləri Mir Möhsün Nəvvabın hücrəsinə toplaşıb, onun rəhbərliyi altında fəaliyyət göstərirlər. Beləliklə də, təxminən 1872-ci ildə Şuşada ikinci bir ədəbi məclis – "Məclisi-fəramuşan" təşkil olunur" (65, s.199).

"Məclisi-üns"də olduğu kimi, bu məclisin də iştirakçılarının tam siyahısı yoxdur, müəyyən mənbələrdə "Məclisi-fəramuşan"da yuxarıda adlarını çəkdiklərimizdən əlavə, "Nəvvab Mir Möhsün ağa, Həsənəli xan Qaradaği, Məşədi Əyyub Baki məclisə daxil olmuş və son zamanlar şüəra Ağa Mirzə Cəlal, Səməd bəy, Bəhram bəy Fədai Vəzirov, Mirzə Əbdül Şahin, Həsən Qara Hadi, Mirzə İbrahim Tahir, Mirzə Fatı xanım Kəminə"nin toplaşdığı, bunların əsasən sadə təbəqədən olduqları bildirilir (65, s.191).

Məşhur şair, alim, rəssam Mir Möhsün Nəvvabın tərtib etdiyi "Tərkireyi-Nəvvab" əsərində bu şəhərdə yaşamış 100-dək ədibin adını çəkdiyini nəzərə alsaq, bu munis şəhərimizin həmin dövrdə necə qaynar ədəbi mühitə malik olduğunu və qeyd olunan məclislərin geniş tərkibini təxmin edə bilərik.

XIX əsr Azərbaycan ədəbi məclislərinin dəyərli tədqiqatçısı Nəsrəddin Qarayev müxtəlif sənədlər əsasında aşağıdakıların "Məclisi-fəramuşan"ın iştirakçıları olduqlarını müəyyən edə bilmişdir: "Mir Möhsün Nəvvab (1833-1919), Abdulla bəy Asi (1841-1874), Həsənəli xan Qaradaği (1847-1929), Mirzə Əbdül Şahin (1849-1900), Məşədi Əyyub Baki (1866-1909), Fatma xanım Kəminə (1840-1898), Abdulla bəy Abış, Baxış bəy Səbur (1863-1931) və qardaşı Bəhram bəy Fədai, Mirzə Muxtar (1866-1912), Məşədi Məhəmməd Bülbül (1863-1918), Molla Xəlil Şaki, Mirzə Məhəmməd Katib (1833-1889), Həsən Qara Hadi (1826-1900), Xarrat Qulu Yusifi (1823-1883), Mirzə Hüseyn Salar (?-1876), Mirzə İsmayıl Məhzun (1821-1894), Nazim, Mirzə Əli Aşiq (1846-1894), Müznib, Sabit, İbrahim bəy Azər (1836-1885), Məşədi Cəfərqulu (?-1896), Mehdi bəy (?-1887), Hacı Əmir (?-1887), Kərbəlayi Ələkbər Safi, Mirzə Sadıq Lətif oğlu Hicri (təbib), Mirzə Sadıq İmanxan oğlu (xanəndə) Piran (1811-1892), Məşədi İsi, Hacı Hüsü, Sadıqcan, Mirzə Ələsgər Növrəs, Nəvvabın müəllimi Molla Abbas (1831-1880), Mirhəsən Miriş (Nəvvabın oğlu, 1871-1948), Mirzə Əli Mühərrir, Sədi Sani (1854-1879) və qeyriləri" (65, s.201).

Bir çoxunun klassik filoloji savadı və klassik poeziyaya dərindən bələdliyi olan bu ədiblərin söhbətləri həm yeni əsərlərə, həm poetika məsələlərinə, həm də klassik və müasir şairlərin yaradıcılığına həsr olunmuşdur. Nəsrəddin Qarayevin arxiv materialları əsasında təqdim etdiyi maraqlı bir nümunə həmin dövrdə şuşalı şairlərin ədəbi biliyinin və bu şəhərdəki mədəni mühitin, ailə mühitinin, şəxsi kitabxanaların yüksək səviyyəsini əyani şəkildə göstərir: "Məclis şairlərinin çoxunun evində Sədi, Nizami, Cami, Nasir, Xosrov və başqa şairlərin əlyazmaları ilə yanaşı, müxtəlif təzkirələr də olurdu.

Şuşadakı bu iki ədəbi məclisə bu şəhərə gələn səyyahlar, ziyalılar, alimlər, şairlər də təşrif buyurar, məclisin yüksək səviyyəsini qeyd edərdilər. Mükalimələr, təhlillər, əruz vəzninin incəliklərinin təhlili, müzakirələr bu məclislərin fəaliyyət növlərindən idi. "Məclisi-üns"də olduğu kimi, "Məclisi-fəramuşan"da da musiqi xüsusi yer tuturdu.

Tədqiqatçılar onu da qeyd edir ki, Şuşadakı "Məclisi-üns" və "Məclisi-fəramuşan" həm qarşılıqlı, həm də Azərbaycanın başqa yerlərində fəaliyyət göstərən digər məclislərlə yaradıcılıq əlaqəsində olub. Bu məclislərdə əsasən klassik üslublu qəzəlxanlar toplaşmışdı və bunun da təbii səbəbləri var idi. XIX əsrdə ənənəvi məclislərin yaranmasında və bir çox şairin bunlarda geniş təmsil olunmasında ədəbi prosesdə izlənən əks meyllərin təsirini qeyd etməyə bilmərik.

Həmin dövr ədəbi prosesində, eləcə də təhsildə, mədəniyyətdə iki fərqli meyl izlənilirdi və bunlar arasında aşkar və ya dəruni ziddiyyəti sezməmək mümkün deyil. Bir tərəfdən, klassik mədəniyyətdən qaynaqlanan mücərrəd şeir ənənəsinə, şərti olaraq desək, qəzəlxanlığa meyl (ona görə şərti olaraq ki, qəzəl formasında yeni mövzu və ideyalar da ifadə oluna bilirdi və bunun ən parlaq nümayəndələri Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabirin novator yaradıcılığı hesab oluna bilər), digər tərəfdən, realist ədəbiyyatın və müasir janrların təşəkkül tapıb yayılması.

Müasir mətbuatın, teatrın, üsuli-cədid məktəblərinin yaranması, qərbyönümlü mədəniyyətlə tanışlıq sayəsində çağdaş ədəbi meylin ifadə imkanları getdikcə genişlənirdi. Lakin klassik üslublu qəzəlxanlıq müəyyən dairədə qapanırdı və buna görə də özünüifadə üçün geniş meydan axtarırdı. XIX əsrdə məclislərin geniş yayılmasına təkan verən amillərdən biri olaraq məhz bu prosesi göstərmək olar. Ədəbi məclislərin dəyərli tədqiqatçısı Nəsrəddin Qarayevin dediyi kimi, bu dövrdə "aşiqanə və dini məzmunlu qəzəl, qəsidə, növhə, minacat kimi əsərlərlə yanaşı, yeni ədəbi forma və buna muvafiq olaraq yeni məzmun yaranmağa başlayır... Rusiyanın böyük şəhərlərində təhsil alan, eləcə də rus ordusunda zabit kimi qulluq edən azərbaycanlıların sayı da getdikcə çoxalırdı... XIX əsrin birinci yarısından başlayaraq həcviyyatla yanaşı, həyatın zəruri tələbindən doğan ictimai məzmunlu satira da guclənir. Cəmiyyətdəki naqis cəhətlərin ədəbiyyatda əksi və tənqidi hətta qəzəl janrında da özünə yer tapır. Qadın simvolik təşbih qəlibindən çıxaraq, bəşəri xarakterə çevrilir, cəmiyyətin vacib və ləyaqətli üzvü kimi tərənnüm və vəsf edilir" (65, s.13-14).

Ədəbi məclislər məhz bu proseslərin cərəyan etdiyi, qızğın müzakirələrin aparıldığı, ədəbi inkişaf meyllərinin təşəkkül tapmağa başladığı özünəməxsus yaradıcılıq emalatxanaları rolunu oynayır və mənbələrdə deyildiyi kimi, yüzə qədər şairin, o cümlədən X.B.Natəvan, Q.B.Zakir, M.M.Nəvvab, A.B.Asi, M.Məmai, M.Ə.Növrəs, F.X.Kəminə, M.H.Yüzbaşov, N.X.Qaradaği, H.A.Agəh, M.B.Aşiq, Aşıq Pəri, M.Əbülqasim, M.S.Fəna, M.H.Salar, İ.B.Azər, M.B.Məxfi kimi istedad sahiblərinin fəaliyyət göstərdiyi Şuşa ədəbi mühitinin əhəmiyyəti artır. Belə bir zəngin mühitdə "Ədəbi məclislər ilk növbədə şeir-sənət məktəbi idi. Burada şeirlər, məsnəvilər yazılır, ədəbi müzakirələr aparılır, şeir normaları öyrədilir, nəzirələrlə ənənələr möhkəmlədilir və gələcək nəsillərə ötürülürdü... Məclis yığıncaqlarında yazılan şeirlərin müzakirəsi, forma-məzmun xüsusiyyətlərinin dəyərləndirilməsi ədəbi tənqid və ədəbi prosesin inkişafına öz təsirini göstərməkdə idi. Şeir, sənət məktəbi kimi şeirşünaslıq elminin qayda və normalarının öyrədilməsi, qorunması ədəbi məclislərin bəlağət və poetika məktəbi kimi də əhəmiyyətini müəyyənləşdirir" (74). Müəllif "Məclisi-üns" və "Məclisi-fəramuşan"dan başqa, Cəfərqulu xan Nəvanın sarayında fəaliyyət göstərən, azsaylı şair və sənət adamlarını bir araya gətirən üçüncü bir ədəbi məclisin də varlığının qeyd olunduğunu bildirir. Lirik şeirlərlə yanaşı, məsnəvi, nəzirə, təzkirələr də müzakirə olunan Şuşa məclisləri həm də elm, sənətşünaslıq, musiqi, xəttatlıq ocaqları idi. Tədqiqatçılar məclis üzvlərinin musiqi məclisləri keçirdiyini, bayramların təşkilində fəallıq göstərdiyini, məktublaşdıqlarını, şeirləşdiklərini, bəzilərinin təzkirə müəllifi olduğunu bildirir.

Ümumiyyətlə, Şuşa mühitində ədəbi və tarixi məzmunlu təzkirələr əhəmiyyətli yer tutub və buranın ədiblərinin yazdığı təzkirələr, şeir topluları yalnız tarixi deyil, mühüm filoloji dəyərə malikdir. Şuşada xan qızı, şairə Ağabəyim Ağa Tutinin bir çox şairlərin əsərlərini yazıb topladığı "Bəyaz"ının olması bəllidir. Görkəmli ədəbi şəxsiyyətlər haqqında bioqrafik məlumat, əsərlərindən nümunələr verilən bu təzkirələr, tarixi salnamələrlə yanaşı, Azərbaycan mədəniyyətinin mühüm bir mühitinin tarixinin, ədəbi özəlliklərinin,




*Professor Asif Hacıyev, "Şuşa: Ədəbi-mədəni mühit" kitabı*

ədəbi dil, bədii üslub, janr, vəzn, mövzu, məzmun kimi bir sıra məsələlərin tədqiqində olduqca mühüm mənbədir. Eyni zamanda bu əsərlərdəki dövrləşdirmə, şərh, təqdim prinsipləri, elmi üslub filoloji fikir tariximizin öyrənilməsində əhəmiyyətli qaynaqdır. Bu baxımdan Qarabağ-Şuşa ədəbi-mədəni mühiti haqqında dolğun təsəvvür yaradan təzkirələrdən, Mir Möhsun Nəvvabın yuxarıda adlarını çəkdiyimiz "Təzkireyi-Nəvvab"ı ilə yanaşı, Mirzə Yusif Qarabağinin "Məcmueyi Vaqif və müasirini-digər", Mir Mehdi Xəzaninin "Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirlər - Xəyalat məcmuəsi", Həsənəli Xan Qaradağinin "Xan Qaradaği", Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirələri olduqca zəngin məlumata malikdir.

Bu ədəbi qaynaqlarda Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Qasım bəy Zakir, Məhəmməd bəy Aşiq, Cəfərqulu xan Nəva, Mirzəcan bəy Mədətov, Fatma xanım Kəminə, Məmo bəy Məmai, Nabi Əfəndi, Mirzə Ələsgər Növrəs, Mir Mehdi Xəzani, Kərbəlayi Səfi Valeh, Aşıq Pəri, Abdulla bəy Asi, Mirzə Məhəmməd Katib, Mirzə Növrəs, Məşədi Cəfər Qarabaği, Mirzə Hüseyn Çakər, Məşədi Məhəmməd Bülbül, Baxış bəy Səbur kimi bir çox şair haqqında məlumat və əsərlərindən nümunələr mövcuddur.

Şuşa ədiblərinin, məclis üzvlərinin böyük bir qismi poeziya ilə yanaşı, ictimai məsələlərdə də fəal olmuş, elmi yaradıcılığa meyl etmişlər. Bu baxımdan "Nəvvabın uzun illər elmi ictimaiyyətdən gizli saxlanan "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri xalqımızın keşməkeşli tarixini faktlar əsasında dəyərləndirmək baxımından qiymətli tarixi qaynaqdır. "Məclisi-üns" üzvü Mirzə Həsənin "Rəsmi-vilayəti-Qarabağ və şəhri-Şişə" ("Qarabağ vilayəti və Şuşa şəhərinin adətləri") məsnəvisi də bədii olmaqla bərabər, tarix, etnoqrafiya baxımından da araşdırılası qiymətli məxəzdir" (74). Şair, alim, rəssam, lirik şeirlərin və "Təzkireyi-Nəvvab"ın müəllifi, "Məclisi-fəramuşan"ın rəhbəri Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası"ndan başqa, ermənilərin törətdiyi soyqırımlar onun bədii yaradıcılığında da əks olunub.

Milli tarixşünaslığımızın mənbələrindən olan "Qarabağnamələr"in müəllifləri Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabaği, Mir Mehdi Xəzani, Əhməd bəy Cavanşir, Mirzə Yusif Qarabaği, Rzaqulu bəy Mirzə Camal oğlu, Həsən İxfa Əlizadə, Mirzə Rəhim Fəna, Mirzə Vəli bəy Baharlı, Həsənəli xan Qaradaği də Qarabağ-Şuşa elmi-mədəni və ədəbi mühitinin yetirmələri idi. Bu müəlliflərdən Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal bəy Cavanşir Qarabağinin "Qarabağ tarixi", Əhməd bəy

Cavanşirin "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair", Mirzə Yusif Qarabağinin "Tarixi-safi", Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ", Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ", Qarabağ xanının vəziri, şair Mirzə Vəli bəy Baharlının "Əhvalati-Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi", Həsənəli xan Qaradağinin "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları"... əsərləri olduqca qiymətli və əvəzsiz tarixi əsərlər, mənbə və məxəzlərdir" (16).
Deyildiyi kimi, Şuşa məclisləri elmi-pedaqoji mühitlə də sıx bağlı idi və "Məclisi-fəramuşan"ın rəhbəri Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" adlı təzkirəsində şəhərin tanınmış alimləri Molla Abbas Cavanşir, Mirzə Heydərqulu Təbib, Mirzə Əli Təbib, Mirzə Əli Aşiqə də xüsusi diqqət yetirmişdi.
Şuşa şəhərində XVIII əsrin ortalarından başlayıb, XIX əsrin əvvəllərindən vüsətlənən maarifçi təfəkkür və maarifçi realizm, dünyəvilik, qadınların ictimai-mədəni həyatda fəal iştirakı, Ağabbəyim Ağa Tuti, Xurşidbani Natəvan, Aşıq Pəri, Fatma xanım Kəminə kimi şairələrin, Gövhər Ağa, Qara Pirimli Nigar, eləcə də Ağabəyim Ağa Tuti, Xurşidbani Natəvan, Fatma xanım Kəminə kimi xeyriyyəçilərin fəaliyyəti Şuşada qadına münasibətin demokratikliyindən xəbər verir. Tədqiqatçıların Azərbaycan aşıq yaradıcılığında ilk professional qadın aşığı hesab etdikləri Aşıq Pərinin də məhz belə bir mühitdə yetişməsini və öz yaradıcılığında yazılı və şifahi bədii söz ənənəsini çulğaşdırmasını qanunauyğun ədəbi hadisə hesab edə bilərik.
Beləliklə, XVIII-XIX yüzillərin Şuşa ədəbi mühitinin, xüsusən buradakı ədəbi məclislərin nümayəndələri reallığa yönəlmiş, dünyəvi mövzularla zəngin yeni ədəbi mərhələnin, maarifçi-realist ədəbiyyatın təməlini qoydular. Bununla da Orta əsrlərin ədəbiyyatından tamamilə fərqli maarifçi realizm ədəbi-estetik fenomeni meydana çıxdı, eyni zamanda sonrakı mərhələyə - XX əsrin tənqidi realizminə keçidin fəlsəfi-ideoloji və ədəbi-estetik zəminini yaratdılar.
Həmin dövrdə Şuşada onlarla şair fəaliyyət göstərib və Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab kimi ümummilli səviyyədə tanınan şairlərlə yanaşı, adları geniş kütləyə elə də bəlli olmayan, ancaq Şuşa ədəbi mühitində mövqeyə sahib bir çox şairlərin də yaradıcılığı diqqətə layiqdir. Onların müxtəlif qaynaqlarda saxlanılmış əsərləri son dövrlərdə dərc olunsa da, adları, əsasən, filoloji dairəyə məlumdur, geniş oxucu kütləsinin və təhsil sisteminin diqqətindən kənardadır.
Beləliklə, XIX əsrin sonlarından başlayaraq ümummilli ədəbiyyatda olduğu kimi, Qarabağ ədəbi mühitində, Şuşa mərkəz olmaqla, XX əsrin yeni ədəbi yaradıcılıq tipologiyasının – ictimai baxımdan fəal, maarifçi, tənqidi, satirik, fəci realizmin və bir qədər sonra romantik ədəbiyyatın təşəkkülü prosesi başladı və sürətli formalaşma dövrü yaşandı. Bu ümummilli ədəbi prosesdə Şuşadakı pedaqoji, ədəbi-mədəni mühit və Şuşa əsilli ədiblər, alimlər, publisistlər müstəsna rol oynadı və Şuşa XX əsr ədəbiyyatına keçidin ideoloji məzmununu və yaradıcılıq tipologiyasını təmin edən ədəbi-mədəni mərkəzlərdən biri oldu.
Azərbaycanın digər yerlərindəki ədəbi mühitlərlə sıx əlaqədə olan Şuşa ədəbi mühitinin və ədəbi məclislərinin ümummilli mənəvi-mədəni proseslərdə, ilk növbədə, bir tərəfdən, mədəniyyət və ədəbiyyatımızın xəlqiləşməsində və milliləşməsində, digər tərəfdən, dünyada baş verən mütərəqqi meyllərin əxz olunmasında, ədəbiyyatın novator yaradıcılıq üsulları və poetik vasitələrlə zənginləşməsində, XX əsr ədəbi məktəblərinin formalaşmasında böyük əhəmiyyəti olmuşdur.
Ədəbiyyatımıza milli maarifçilik şüurunu, ədalət, bərabərlik, azadlıq ideyalarını, realizm və satiranı, xəlqiliyi, çağdaş ədəbi dil və üslubu, yeni mövzuları və fərdi cizgili qəhrəmanları gətirən Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvabla başlayan bu proses bir qədər sonra Qarabağ mühitinin nümayəndələri, görkəmli ədib, yazıçı, publisist, alimlər Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Nəcəf bəy Vəzirov, Üzeyir bəy Hacıbəyli, Firidun bəy Köçərli, Əhməd bəy Ağayev, Süleyman Sani Axundov, Ceyhun bəy Hacıbəyli və başqaları tərəfindən yeni ədəbi-estetik müstəvidə və məzmunda davam etdirildi.
Azərbaycanın bütövləşməsini əsas məqsədlərdən hesab edən keçmiş Qarabağ xanlığının siyasi-ideoloji ənənəsinə sadiq qalan bu görkəmli şəxsiyyətlərin əsas xüsusiyyəti – onların yalnız ədəbi yaradıcılıqla məndudlaşmaması, siyasi, diplomatik, ideoloji fəaliyyətə də fəal meyl etmələri ilə səciyyələnirdi.
Yeni dövr ədəbiyyatımızın yaradıcılarından olan bu şəxsiyyətlər Azərbaycanın müasir tarixində mühüm rol oynamış, milli şüurun, istiqlal, cümhuriyyətçilik ideyalarının və ədəbi-estetik fikrin formalaşmasına güclü təsir etmişlər. Onların hər birinin Qarabağdan, Şuşadan başlayan həyat yolu, fəaliyyət və yaradıcılığı bu unikal şəhərin xalqımızın taleyində oynadığı mütərəqqi rolun təsbiti və eyni zamanda gənclərin milli ruhda formalaşmasında bir örnək kimi dəyərlidir.

# 2023 KONFRANSLAR

**10 MART 2023-cü il**

Gənc tədqiqatçıların VI respublika elmi konfransı

**12 MAY 2023-cü il**

Heydər Əliyev və Türk Dünyası beynəlxalq elmi konfransı

**24-25 NOYABR 2023-cü il**

International Conference on Social Work & Social Research

Washington University in St. Louis (USA)
Azerbaijan University
Sakarya University (Türkiye)
The Center for Social Research (Azerbaijan)



## Ali təhsildə keyfiyyət təminatının rolu və dəyərləri

Pərvanə Mövsümova
Azərbaycan Universiteti
Keyfiyyət təminatı şöbəsinin müdiri

Keyfiyyət təminatı - universitetlərin səmərəliliyinin və fəaliyyətinin daxili və xarici yoxlanışı - ali təhsildə əldə olunmuş nailiyyətlərin təkmilləşdirilməsi və bununla da gələcəkdə daha keyfiyyətli təhsil sisteminin formalaşdırılmasında həlledici rol oynayır. Keyfiyyətin təmin olunması üçün akademik azadlıq, institusional muxtariyyət və sosial məsuliyyət kimi əsas dəyərlərə əsaslanılır. 21-ci əsrdə ali təhsildə gedən dəyişiklik və innovasiyalar nəticəsində keyfiyyət təminatı əsas dəyərlərin qorunub saxlanmasında və problemlərin aradan qaldırılmasında xüsusilə mühüm rol oynayır. Keyfiyyətə təminat bu fundamental dəyərlərə sadiqliyimizi gücləndirmək və bəzən də ona rəhbərlik etmək kimi keyfiyyətlərə malikdir. Məhz yeni tədris və təlim təcrübələrinin yarandığı, fərqli konsepsiyalı universitetlərin meydana çıxdığı, əmək bazarının tələblərinə uyğun təhsilin formalaşdığı, kadrların çoxşaxəli təcrübəyə əsaslandığı və ən əsası da təhsildə yenilik və bərabərliyin genişləndirildiyi bir mühitdə keyfiyyət təminatı davamlılığı və təminatı saxlamaq kimi bir öhdəlik daşıyır. Həm Covid-19 pandemiyasının yaratdığı yeni mühit, həm də irq və bərabərlik məsələləri ətrafında sosial dəyişikliklər ali təhsil ocaqlarında keyfiyyətin təminatı səylərinin həmişəkindən daha vacib olduğunu göstərir.

Akademik azadlıq, institusional muxtariyyət və sosial məsuliyyət keyfiyyət təminatının gördüyü işlərin və onun keyfiyyətə baxışının strukturunda qurulur. Keyfiyyət təminatı üzrə meyarlar aydın və düzgün tərtib edilib. Akademik azadlıq olmadan keyfiyyətli təhsildən söhbət gedə bilməz. İnstitusional muxtariyyət olmadan keyfiyyətli universitetlər mövcud ola bilməz. Tələbələrə və cəmiyyətə verilən dəyərin keyfiyyətini tam dərk etmədən və sosial məsuliyyətə sadiq olmadan keyfiyyət davam etdirilə bilməz. Həm daxili, həm də xarici keyfiyyət təhlili bu dəyərlər üzərində də qurulmuşdur.
Ali təhsil əhəmiyyətli dəyişikliklər və böyük innovasiyalar qarşısında qaldığından, keyfiyyət təminatı da problemlə üzləşir. Ali təhsilin nə olduğunu, onun necə fəaliyyət göstərdiyini və tələbələrə xidmət göstərdiyi dəyişiklikləri nəzərə alsaq, keyfiyyətin necə təmin edildiyini də bilmək olar. Keyfiyyət təminatı tələbələrə və cəmiyyətə uyğun bu dəyərləri təmin edən və keyfiyyətli ali təhsil üçün nələrin əsas olduğunu duyuran səs ola bilər.

Ali təhsillə işləyən keyfiyyət təminatı, həmçinin tələbələr, hökumət, işəgötürənlər və ictimaiyyət qarşısında əsas dəyərləri formalaşdırmaq və ifadə etmək üçün məsuliyyət daşıyır. Bu, onun sosial məsuliyyət ölçüsünün bir hissəsidir. Bu, ali təhsilin sosial məsuliyyət səylərini ifadə etmək və araşdırmaq, kollecləri, universitetləri və inkişaf etməkdə olan ali təhsil müəssisələrini, məsələn, yenilik, bərabərlik, müxtəliflik və fərqlilik kimi sahələrdə tədbirlər görməyə çağırmaq üçün keyfiyyət təhlilindən istifadə etməklə həyata keçirilə bilər. Akademik azadlıq və muxtariyyətin sosial məsuliyyətin əsaslandığı təməlin bir hissəsi olduğunu nümayiş etdirməklə bunu edə bilər. Bir çox cəhətdən "sosial məsuliyyət" istər ölkədə, istər regionda, istərsə də beynəlxalq səviyyədə sosial ədalətin əldə edilməsində həm keyfiyyət təminatı, həm də ali təhsilin rolu ilə bağlıdır.

**Keyfiyyət təminatı və akkreditasiya sistemlərinə aşağıdakılar daxildir:**
-Keyfiyyətin cavabdehliyin mühüm hissəsi kimi qəbul edilməsi;
-Keyfiyyətli yüksək təhsilin maliyyələşdirməsi və profilləşdirməsi;
-Ali təhsildə köhnəlmiş kontekstlərin dəyişdirilməsi;
-Təhsil orqanları daxilində keyfiyyət təminatı olan bölmələrlə qarşılıqlı işlərin aparılması;
-Tanınmış akkreditasiya orqanları ilə əməkdaşlıq edilməsi və onların təcrübələrindən yararlanılması;
-Regional akkreditasiya assosiasiyalarının keçirdikləri mütamadi təlimlərin nəticələrinin işə əks etdirilməsi;
-İxtisaslaşmış və peşəkar akkreditasiya ekspertləriylə işlərin görülməsi;
-İnstitusional muxtariyyət ənənəsinin gücləndirilməsi.

**Keyfiyyət təminatının faydaları və məqsədləri**
**1. Keyfiyyət təminatı universitet/fakültə/departament/məktəb/ proqram və onun üzvlərinə aşağıdakıları etmək imkanı verir:**
-Universitet/fakültə/departament/məktəb/proqram və işçi heyətinə daxili faydalar gətirmək;
-Tələbələrə və müəssisənin nüfuzuna xarici fayda gətirmək;
-Davamlı olaraq özünü, tələbələri və universitetin işini təkmilləşdirmək (Davamlı təkmilləşdirmə keyfiyyət təminatının həm orta hesabatlılıq və akkreditasiya tələblərinə xidmət edir, həm də nəticəsidir);
-Fakültənin/departamentin/məktəbin/universitetin reputasiyasını artırmaq və keyfiyyət, keyfiyyət təminatı və keyfiyyətin artırılmasını nümayiş etdirmək üçün xarici tələblərə cavab vermək.

**2. Keyfiyyət təminatı universitet/fakültə/departament/məktəb/proqram üçün imkan verir:**
- Öz missiyasını, vizyonunu, məqsədlərini, və universitetin başqa yerləri ilə əlaqəsini formalaşdırmaq, aydınlaşdırmaq və ifadə etmək;
- Universitetin/fakültənin/departamentin/məktəbin/proqramın unikal və yaxud fərqli xüsusiyyətlərini müəyyən etmək (bu, tələbə və işçi heyətin işə qəbulu və oriyentasiyası üçün özünü müəyyən etməyə kömək edə bilər) və təbliğat üçün.

**3. Keyfiyyət təminatı inkişaf xarakteri daşıyır, müvafiq tərəflərə imkan verir:**
- Rəy almaq və rəyin nəticəsi kimi tədbirlər görmək, kollektiv prioritetləri müəyyən etmək və uyğun təcrübəni bölüşmək;
- Ehtiyacları və resursları müəyyən etmək;
- Fəaliyyət planını hazırlamaq və həyata keçirmək;
- Universitetdə özünü, işçiləri, tələbələri və işi izləmək və qiymətləndirmək;
- İşində güclü və zəif tərəfləri müəyyən etmək;
- Tənzimləmə, özünütənzimləmə və öz-özünə təşkil olunmuş inkişaf yolu ilə daimi peşəkar inkişaf üçün işçilərin ehtiyaclarını həll etmək və onların peşəkarlığını artırmaq;
- Effektiv və davamlı təkmilləşdirmələr etmək üçün hara müdaxilə edəcəyini bilmək;
- İşin keyfiyyətini, işçi heyəti və tələbələri, öyrənmə və işin nəzərdə tutulan nəticələrinə nail olmaq.

**4. Prosedur baxımından keyfiyyət təminatı müvafiq tərəflərə aşağıdakıları etmək imkanı verir:**
- Öz işinə baxmaq, planlaşdırmaq, çatdırmaq və qiymətləndirmək üçün sistemli, ciddi zehniyyəti/fikrini inkişaf etdirmək və bunu metodik, əməkdaşlıq və kollegial şəkildə etmək;
- Universitet üzvlərinin akademik, tədqiqatçı və müəllim kimi işinin xarakteri və təsiri ilə bağlı sistemli araşdırma aparmaq;
- Nəticələrə gətirib çıxaran prosesləri başa düşmək, beləliklə, zəruri hallarda onları təkmilləşdirmək, yəni keyfiyyət təminatının aydın formalaşdırıcı gündəliyə malik olması;
- Fakültə/departament/məktəb/universitet işində davamlı təminat və keyfiyyətin artırılması proseslərinə, onun tədrisi, öyrənilməsi, tələbələrin qiymətləndirilməsi, qiymətləndirilməsi və tələbə nəticələrinin digər mexanizmlər və onların hesabat dövrləri üçün mövcud ola biləcək hesabat dövrlərindən daha yüksək olmasına töhfə vermək, işin nəzərdən keçirilməsi və təkmilləşdirilməsi;
- Təkmilləşdirmək, inkişaf etdirmək və görülən işlərin keyfiyyətinin ən yüksək səviyyədə olmasını və bunun üçün proseslərin fakültə/kafedra/məktəb/universitetdə mövcud olmasını, onların səmərəli fəaliyyət göstərməsini və işin keyfiyyətinə təsir göstərməsini təmin etmək;
- Keyfiyyətin təminatı üçün müvafiq və effektiv prosedur və mexanizmlərin olub-olmadığını və bunların işlədiyini müəyyən etmək, fakültə/kafedra/məktəb/universitetin işinin nəzərdə tutulan xüsusiyyətlərinə nail olunmasını təmin etmək, hesabatlılığa xidmət etmək və müəyyən etmək fakültə/departament/məktəb/universitet daxilində yaxşı təcrübə.

**5. Rəhbərlik və idarəetmə baxımından keyfiyyət təminatı müvafiq tərəflərə imkan verir:**
- Sübuta əsaslanan qərarların qəbulu və liderliyi inkişaf etdirmək və həyata keçirmək;
- Əməkdaşlıq və kollegial təcrübələri inkişaf etdirmək və mənəviyyatı yaxşılaşdırmaq;
- Universitetin/fakültənin/departamentin/məktəbin/proqramın nəyi ifadə etdiyini və onun hara getdiyini müəyyən etmək;
- İşinin fərqli güclü tərəflərini, nailiyyətlərini, ehtiyaclarını və gələcək planlarını bilmək və başa düşmək və bu, həm də hesabatlılıq məqsədlərinə xidmət edir;
- Fakültə/departament/məktəb/universitetdə ümumi maraq kəsb edən sahələri müəyyən etmək, ayrı-ayrı personal üzvlərini və ya bütün fakültələri/departamentləri/məktəbləri kampusda və xaricində müvafiq resurslarla əlaqələndirmək və müəyyən edilmiş resurs ehtiyaclarını ödəmək;
- Sözügedən işin təkcə öz məqsədlərinə, vəzifələrinə və nəzərdə tutulan təlim nəticələrinə deyil, həm də onların öz növbəsində fakültənin/kafedranın/məktəbin və universitetin strateji istiqamətinə uyğun olmasını təmin etmək;
- Praktikada işin harada olduğunu və elan edilmiş məqsədlərə uyğunluğnu müəyyən etmək;
- İşin səmərəliliyini və effektivliyini artırmaqla fakültə/departament/məktəb/universitetdə işin ən yaxşı şəkildə yerinə yetirilməsi və işləməsi üçün ümumi məqsəd istiqamətində ünsiyyəti gücləndirmək, əhval-ruhiyyəni və işləmək hissini artırmaq;
- Yeni heyət üzvlərinin maksimum rahatlıqla və minimum vaxtla fakültə/departament/məktəb/universiteti başa düşə bilməsi və həqiqətən uyğunlaşması üçün görülən işin hərtərəfli və tam sənədlərini tərtib etmək (kadr dəyişikliyi problemi olduqda).

**Azərbaycan Universitetinin Keyfiyyət təminatı şöbəsi**
Keyfiyyət təminatı şöbəsi Azərbaycanda beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanaraq, ali təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində fəaliyyət göstərir. 2021-ci ilin sentyabr ayında təsis edilmiş şöbənin əsas iş prinsipi vahid keyfiyyət təminatı sisteminin təşkil edilməsi, daxili keyfiyyət sisteminin qurulması, akademik fəaliyyətin inkişaf etdirilməsi, təhsil prosesinin səmərəli icrası və bütün sənədlərin dövlət standartlarına uyğunlaşdırılmasından ibarətdir. Professor-müəlim heyətinin iş prinsipinin inkişafı ilə yanaşı innovativ və interaktiv təlim metodlarına əsaslanan tələbəyönümlü təhsil prosesinin icrasına nəzarət də strukturun vəzifələri sırasındadır. Eyni zamanda şöbə həm müəllim heyəti, həm də tələbələr arasında sorğular keçirərək problemləri aradan qaldıraraq təhsildə keyfiyyəti təmin etməlidir.

## 207 tələbə "Türk Dünyası Rəqəmsal Vətəndaşlığı" layihəsinə qoşulub



Azərbaycan Universitetinin 207 tələbəsi "Türk Dünyası Rəqəmsal Vətəndaşlığı" fənnində iştirak edib. Fənnin tədrisi Qırğızıstan-Türkiyə Manas Universiteti və Türkiyənin Qaziantep Universitetinin koordinatorluğunda həyata keçirilən eyniadlı layihə çərçivəsində aparılıb. Fənn, 2021/2022-ci tədris ilinin payız semestrində Qırğızıstan - Türkiyə Manas Universiteti, yaz semestrində isə Amasya Universiteti tərəfindən onlayn formatda tədris olunub.
Tədris ilinin sonunda layihənin koordinatorlarından Türkiyənin Qaziantep Universitetinin Turizm fakültəsinin dekanı, professor Erdal Bay Azərbaycan Universitetini ziyarət edib. Elmi işlər üzrə prorektor Yusif Qasımov, Sosial işin təşkili kafedrasının müdiri, layihənin Azərbaycan Universiteti üzrə koordinatoru Tünzalə Verdiyeva və layihənin ölkə üzrə koordinatoru Könül Məmmədovanın iştirak etdiyi görüşdə tələbələrin layihəyə marağı və davamiyyəti, eləcə də ötən tədris ilində tədris olunan mövzular və akademik heyətin peşəkarlığı, o cümlədən layihə çərçivəsində gələcəkdə görüləcək işlər müzakirə edilib.
Qeyd edək ki, Azərbaycan Universiteti "Türk Dünyası Rəqəmsal Vətəndaşlığı" layihəsinə 2021-ci ildə qoşulub. Universitetin payız semestrində 30, yaz semestrində isə 207 tələbəsi "Zoom" platforması üzərindən təşkil olunun dərslərdə iştirak edib.

## 340 tələbə elmi-tədqiqat və istehsalat təcrübəsi keçib

2021/2022-ci tədris ilinin yaz semestrində Biznes və iqtisadiyyat, Humanitar fənlər və İnformasiya-kommunikasiya texnologiyaları fakültələrində 13 ixtisas üzrə təhsil alan 294 bakalavriat və 9 ixtisaslaşma üzrə təhsil alan 46 magistratura tələbəsi müxtəlif qurumlarda elmi-tədqiqat və istehsalat təcrübəsi keçib. Müxtəlif dövlət orqanları və onların tabeliyində olan müəssisələr, bank, maliyyə, turzm şirkətlərində təcrübədə olan tələbələrə 48 müəllim rəhbərlik edib.

## Sosial iş tələbələri Şüvəlanda təcrübə keçib



Sosial iş ixtisası üzrə təhsil alan 7 tələbəmiz diplomqabağı istehsalat təcrübəsini Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeçiliyində Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzində keçib. Tələbələr mərkəzdə fiziki və əqli əlilliyi olan, habelə sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailə üzvləri, valideyn himayəsindən məhrum olan, kimsəsiz və baxımsız uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmamış şəxslər və onların ailələri, qaçqın və məcburi köçkün, habelə şəhid ailələrindən olan uşaqlar və onların ailə üzvləri, uşaq müəssisələrində olan uşaqlar və onların ailə üzvləri, zorakılığa məruz qalan şəxslər, cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslər, tək valideyni (qəyyum və himayəçisi) olan uşaqlar, aztəminatlı ailələrlə çalışıblar. Həmçinin benefisiarlarla praktiki iş prosesində iştirak edib, təlimlər keçiblər.



Qeyd edək ki, mərkəz, alternativ qayğı modelində, icmada risk qruplarından olan uşaq, qadın və ailələrə göstərilən dəstəyi özündə birləşdirən, xidmətdən kənar, lakin xidmətə yönəldən, icmada mövcud olmayan xidmətlərin ilkin formada əhaliyə çatdırılmasına yönələn, fors major situasiyalarda lazımi dəstəyi və fəaliyyəti həyata keçirir.

## Sosial iş tələbələri "Boccia"da istehsalat təcrübəsi keçib



Sosial iş ixtisası üzrə təhsil alan 16 tələbəmiz diplomqabağı istehsalat təcrübəsini Boccia İdman Federasiyasında keçib. Tələbələrimiz təcrübə müddətində milli komandanın 5 kateqoriyalı idmançılarının məşq zamanı asistantlığını edib, qeyri-məşq vaxtlarında onların problemlərini öyrənib və çıxış yolu tapmaq üçün çalışıb.
Qeyd edək ki, boccia idman növü 1984-cü ildə Paralimpiya Oyunlarının proqramına daxil edilib. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən 2013-cü ildən təbliğinə başlanılıb və bu idman növü üzrə milli komanda yaradılıb. Boccia İdman Federasiyası isə 2018-ci ildən fəaliyyət göstərir. Azərbaycan idmanı üçün yenilik olan bu idman növündə ağır kateqoriyalı əlillik dərəcəsi olan uşaqlar, gənclər və yaşlılar güclərini sınaya bilərlər.

## Təcrübəçi tələbələrimiz təşəkkürnamə ilə təltif olunublar



Milli Olimpiya Komitəsinin Azərbaycan Boccia İdman Federasiyasında istehsalat təcrübəsi keçən 16 tələbəmiz federasiyanın prezidenti, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə heyətinin sədri Vüqar Behbudov tərəfindən təşəkkürnamə ilə təltif olunub. Mükafatlandırma mərasimində federasiyanın rəhbərliyi, Azərbaycan Universitetinin Sosial işin təşkili kafedrasının müdiri Tünzalə Verdiyeva, İKT fakültəsinin dekanı Asif Paşayev, təcrübə rəhbəri Ülvi Əliyev, Boccia idmançıları və təcrübəçi tələbələr iştirak ediblər.



## Dünya Sosial iş Günü qeyd olunub

Dünya Sosial iş Günü münasibətilə keçirilən ənənəvi peşə həmrəylik tədbiri Sosial işin təşkili kafedrasının nəzdində fəaliyyət göstərən "Empatiya" klubu tərəfindən təşkil olunub. "Yeni eko - sosial dünyanı birlikdə quraq: heç kəs kənarda qalmasın" mövzusuna həsr olunan tədbirin moderatorluğunu klubun sədri və Sosial iş ixtisası üzrə III kurs tələbəsi Məhəmməd Ələkbərov edib.
Tədbirdə Sosial işin təşkili kafedrasının müdiri Tünzalə Verdiyeva "Dünya Sosial iş Günü"nün mahiyyəti haqqında məlumat verib. Sosial iş ixtisası üzrə təhsil alan tələbələr - Nərminə Bağırzadə "Sosial işin yaranma tarixi", Emin Məmmədov "Sosial iş və sosial işçinin vəzifələri", Mədinə Rəhimova "21 Mart – Beynəlxalq Daun Sindromu günü" mövzusunda təqdimatla çıxış ediblər. Tədbirə xüsusi dəvət olunmuş qonaq - əlilliyi olan gənc Elnurə Quliyeva isə əlliliyi olan şəxsin və ailə üzvlərinin üzləşdiyi problemlərə bağlı təcrübəsini tədbir iştirakçıları ilə bölüşüb.



## Dünya Autizm Gününə həsr olunan tədbir keçirilib



"2 Aprel - Yer Kürəsi Mavi görkəmdə" adlı tədbirdə qeyd olunub ki, günün təsis edilməsində əsas məqsəd cəmiyyətin diqqətini autizm sindromlu insanların problemlərinə çəkməkdir.
Tədbirdə Sosial iş ixtisası üzrə təhsil alan III kurs tələbələri Həsən İsgəndərov "Autizm nədir?", Mədinə Rəhimova "Azərbaycanda autizm", Emin Məmmədov "Autizm sindromlu şəxslərin ailələri ilə iş", Nərmin Rzayeva "Autizmli savant sindromu", Gənclərlə iş ixtisası üzrə magistratura II kurs tələbəsi Şalan Novruzov "İnklüziv cəmiyyət və gənclik" mövzusunda məruzə edib.

## Magistratura tələbələrimiz sığınacaqda təcrübə keçiblər



Həyat fəaliyyətinin müxtəlif sahələrində Sosial iş və Gənclərlə iş ixtisası üzrə təhsil alan magistratura I kurs tələbələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin "Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi"ndə bir günlük təcrübə keçiblər.
Tələbələr burada sığınacağın bölmələri və həyətin iş prinsipləri, sığınacaqda sosial xidmətin müxtəlif növləri və formaları istiqamətində həyata keçirilən fəaliyyətlər ilə yaxından tanış olublar.

## Magistratura tələbələri tədqiqat işlərinin hazırlanması qaydaları ilə tanış olublar



Magistratura pilləsində təhsil alan II kurs tələbələrinin iştirak etdiyi təlimdə Elm şöbəsinin müdiri Lətifə Ağamalıyeva "Tezislərin hazırlanma qaydaları" və "Uğurlu təqdimat hazırlanması texnologiyası", Riyaziyyat və informatika kafedrasının müdiri Qabil Əliyev "Magistr dissertasiyalarının hazırlanması qaydaları" mövzusunda məruzə ilə çıxış ediblər.
Təlim magistrantların suallarının cavablandırılması ilə başa çatıb.

## "İnsan alveri və məcburi əmək" mövzusunda maarifləndirmə tədbiri keçirilib



"İnsan alveri və məcburi əmək: özünüzü necə qoruya bilərsiniz" mövzusunda maarifləndirmə tədbirinin qonağı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Baş məsləhətçisi Rafiq Mahmudov olub.
Tədbirdə "İnsan alveri və növləri", "Məcburi əmək", "İnsan alverinin qurbanları", "Məcburi əməyə cəlb olunmuş şəxslərə qarşı tətbiq olunan təzyiqlər", "Qurbanları tora salmaq üçün istifadə olunan üsullar", "İnsan alveri qurbanlarının müdafiəsi üçün xüsusi müəssisələr", "Xarici ölkədə insan alverinin qurbanına çevrilmə" kimi məsələlərə aydınlıq gətirilib, tələbələrin sualları cavablandırılıb.

## Tələbələrimiz arasında ingilis dilində danışıq yarışı keçirilib



"Azerbaijan University Best Speaker" adlı ingilis dilində danışıq yarışı Xarici dillər kafedrası və "Fred's English" Beynəlxalq ingilis dili mərkəzi tərəfindən birgə təşkil olunub. Yarışda ingilis dili bilik səviyyəsi minimum B1 olan tələbələr iştirak edib.
Birinci yeri Sosial iş ixtisası üzrə II kurs tələbəsi Dilarə Fətullayeva, ikinci yeri Tərcümə (ingilis dili) ixtisası üzrə III kurs tələbəsi Tamilla Quluzadə tutub. Üçüncü yerə isə Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə I kurs tələbəsi Ceyran Səmədova layiq görülüb. Qaliblər hədiyyə ilə mükafatlandırılıblar.

## "Mən öz gələcəyimi seçirəm" mövzusunda tədbir keçirilib



Sosial işin təşkili və Xarici dillər kafedraları tərəfindən birgə keçirilən tədbirdə "Ümid yeri" Reabilitasiya Mərkəzinin rəhbəri Yelmar Quliyev mərkəzin fəaliyyəti haqqında, mərkəzin asılılıq psixoloqu Zaur Əliyev "12 Addım" proqramı haqqında, Demet Bozok Psixoloji Mərkəzin rəhbəri, klinik psixoloq Demet Bozok rəhbərlik etdiyi mərkəzdə göstərilən psixoloji dəstək haqqında məruzə ilə çıxış ediblər.
Tədbirdə narkomaniyaya düçar olmuş şəxslərin cəmiyyətə adaptasiyası və inteqrasiya olunmasında yarana biləcək çətinliklər və onların aradan qaldırılmasında sosial işçilərin rolundan danışılıb.

## Təhsil Tələbə Krediti Fondunun tələbələrimiz üçün təqdimatı keçirilib




Ödənişli əsaslarla təhsil alan tələbələr üçün təşkil olunan tədbirdə qeyd olunub ki, Təhsil Tələbə Kredit Fondunun təsis olunması ölkəmizdə təhsilə dövlət qayğısının ən bariz nümunələrindən biridir. Tələbələr üçün yeni imkanlar təklif edən fond, ali təhsilə əlçatanlığın təmin edilməsi və təhsildə bərabər imkanların yaradılması kimi mühüm missiyalara xidmət edir.
Tədbirdə fondun maliyyə şöbəsinin müdiri Tehranağa Abdullayev təşkilatın fəaliyyəti və gördüyü işlər, həmçinin təhsil kreditinin verilməsi qaydaları haqqında tələbələrə məlumat verib.
Qonağın çıxışı tələbə kreditləri sahəsindəki beynəlxalq və yerli təcrübə, təhsil krediti almaq hüququ olanlar, fondun vəsaiti hesabına verilən tələbə krediti üzrə ümumi tələblər, təhsil tələbə kreditinin növləri, kreditin verilməsinin proseduru, təhsil tələbə kreditinə görə faiz dərəcələri, tələbə kreditləri üzrə tətbiq edilən güzəştlər, kreditin qaytarılması üzrə tələblər, müraciətlərin qəbulu və qeydiyyat prosesi, təhsil tələbə krediti və digər bu kimi mövzuları əhatə edib.
Tədbir tələbələrin mövzuya dair suallarının cavablandırılması ilə yekunlaşıb.
Qeyd edək ki, fondun nizamnamə kapitalının məbləği 80 milyon manat təşkil edir.



## İKT tələbələri "IT Brains Academy"nin təqdimatı olub



İnformasiya – kommunikasiya texnologiyaları fakültəsinin tələbələri üçün təşkil olunan tədbirdə mərkəzin rəhbəri Orxan Məmmədov tədris sahələri haqqında məlumat verərək qeyd edib ki, "IT Brains Academy" gənclərə və həvəsi olan hər kəsə informasiya texnologiyaları, proqramlaşdırma, kibertəhlükəsizlik, dizayn və rəqəmsal marketinq sahələrində karyera imkanları yaradır və front-end proqramlaşdırma, back-end proqramlaşdırma, Linux əməliyyat sistemi inzibatçılığı, kibertəhlükəsizlik (red team, blue team), data analitika, texniki dəstək, rəqəmsal marketinq və SMM, motion dizayn, qrafik dizayn, office 365 kimi sahələr üzrə kurslar təklif edir.
Orxan Məmmədov tələbələrə mərkəzin müəllim heyəti haqqında da məlumat verib, dərslərin əyani və onlayn formada tədris olunduğunu bildirib.
Görüşdə qeyd olunub ki, tədrisi başa vuran tələbələr dərəcəli və dərəcəsiz diplomla təltif olunurlar.
Dərəcəli diplom əldə etmək istəyən tələbələr final layihəsi hazırlamalıdırlar. Mərkəz müraciət edənləri Microsoft, Cisco, CompTIA kimi nəhəng şirkətlərin sertifikasiya imtahanlarına hazırlaşdırır və onların beynəlxalq sertifikatlı mütəxəssis olmalarına zəmanət verir.

## Tələbələrimiz "Galileo" bronlaşdırma sistemi kursunu uğurla başa vurublar

Biznes və iqtisadiyyat fakültəsinin Turizm bələdçiliyi ixtisası üzrə təhsil alan tələbələri Gülnarə Bayramova, Aysel Məsimova, Ülviyyə Abdullayeva, Fatma Ələkbərova, Rəfiqə Sadıqova, Firuzə Novruzova və Elməddin Mürşüdov "Galileo" bronlaşdırma sistemi kursunu uğurla başa vurublar. Tələbələrə sertifikatlarını Maliyyə və iqtisadiyyat kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Qəhrəman Yusupov təqdim edib.
Qeyd edək ki, aviaşirkətlərin və turizm agentliklərinin inteqrasiyası nəticəsində, dörd qlobal bronlaşdırma sistemi (Global Distribution Sistem - GDS) yaradılıb. Galileo hazırda dünyadakı dörd qlobal bronlaşdırma sistemindən biridir.




## Filologiya tələbələri topladıqları folklor nümunələrini təqdim ediblər

Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə təhsil alan IV kurs tələbələrinin istehsalat təcrübəsinin birinci hissəsinin yekunlaşması münasibətilə təşkil olunan tədbirdə tələbələrin təcrübə müddəti ərzində apardıqları araşdırma və Azərbaycanın müxtəlif şəhər və kəndlərindən topladıqları folklor nümunələrinin təqdimatı təşkil olunub.
Tələbələr diqqətdən kənarda qalan və hafizələrdə qorunub saxlanan folklor nümunələrinin toplanmasına xüsusi diqqət yetiriblər. Toplanan nümunələr arasında bayatılar, xalq nağılları, əfsanələr çoxluq təşkil edir.



Tədbirdə Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimova, kafedranın professoru Asif Hacıyev, kafedranın müəllimi Yusif Novruzov, humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov çıxış edərək Azərbaycanın zəngin folklor nümunələrinin toplanması və yazıya alınmasının, həmçinin elmi cəhətdən öyrənilməsinin aktuallığı və əhəmiyyətinə toxunub, tələbələrə təşəkkür ediblər.

## Turizmçi tələbələrimiz Qobustanda ekskursiyada olublar



Turizm işinin təşkili və turizm bələdçiliyi ixtisasları üzrə təhsil alan tələbələrimiz auditoriyadankənar dərslər qrafikinə uyğun olaraq "Qobustan Milli Tarixi-Bədii Qoruğu"nda ekskursiyada olublar. Ekskursiyanın məqsədi UNESCO-nun Ümumdünya İrs Siyahısına Azərbaycandan daxil edilmiş mədəniyyət abidələri ilə tanışlıq olub.

Qoruq ərazisində fəaliyyət göstərən muzeyin eksponatlarına baxış zamanı ekskursiya iştirakçılarına peşəkar bələdçilər tərəfindən ətraflı məlumat verilib. Tələbələr semestr ərzində əldə etdikləri nəzəri bilikləri burada praktiki olaraq həyata keçirib, ekskursiyanın gedişində Qobustan Qoruğu barədə maraqlı təqdimatlar ediblər.

Ekskursiya maliyyə və iqtisadiyyat kafedrasının müdiri, dosent Nəriman Böyükkişinin rəhbərliyində turizm üzrə ixtisas müəllimləri Nizami Hüseynov, Fərid Əhmədli və Qəhrəman Yusupov tərəfindən təşkil edilib.



## Tələbəmiz Gürcüstanda keçirilən beynəlxalq tədbirdə iştirak edib



Humanitar fənlər fakültəsinin Sosial iş ixtisası üzrə təhsil alan III kurs tələbəsi Cəsur Mədətzadə "Youth Dialouge 4 Social Change" mübadilə proqramı çərçivəsində Gürcüstanın Bakuriani şəhərində keçirilən "Youth Exchange" adlı beynəlxalq tədbirdə iştirak edib. Tədbir Azərbaycan, Gürcüstan, Danimarka, Polşa, Rumıniya və Ukrayna olmaqla 6 Avropa İttifaqı və tərəfdaş ölkələrdən olan gənclərin iştirakı və əməkdaşlığı ilə təşkil olunub. Cəsur Mədətzadə tədbirdə təşkilat komitəsinin üzvü qismində çıxış edib, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasını təmsil edib. Layihənin məqsədi gəncləri vətəndaş cəmiyyətində daha fəal olmaq üçün gücləndirməkdir.

İştirakçılar burada bir-birlərinin mədəniyyəti və ənənələri ilə tanış olub, həmçinin ev sahibi ölkə Gürcüstanın Axaltsixe bölgəsi, Bakuriani, Borjomi və Tbilisi şəhərlərinin gəzməli-görməli yerlərinə səfər ediblər.



DÖVLƏT
İMTAHAN
MƏRKƏZİ




# ABİTURİYENT MƏSLƏHƏT MƏRKƏZİ

## ÖDƏNİŞSİZ ƏSASLARLA

- **Tələbə qəbulu qaydaları**
- **Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu**
- **Abituriyentin elektron ərizəsinin doldurulması və təsdiq edilməsi qaydası**
- **Texniki problemlərin həlli**
- **Müsabiqə şərtləri**
- **İxtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər**

**Məsləhət xidməti**
**Texniki dəstək**

Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71
Tel.: (+994 12) 431 41 17
office@au.edu.az
www.au.edu.az

## ALİ MƏKTƏBLƏRƏ QƏBUL QAYDALARINDA YENİLİK

2023-cü ildə I ixtisas qrupu üzrə ali təhsil müəssisələrinin informatika yönümlü ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin nəzərinə!

I qrupda ixtisaslar Riyaziyyat-informatika və Riyaziyyat-kimya olmaqla iki altqrupa bölünüb. Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi tərəfindən hazırlanmış qərar layihəsinə uyğun olaraq, 2023-cü ildə keçiriləcək qəbul kampaniyası çərçivəsində I qrup üzrə informatika yönümlü (Rİ altqrupuna daxil olan) ixtisasların müsabiqəsində iştirak etmək istəyən abituriyentlər imtahanın II mərhələsində riyaziyyat və fizika fənləri ilə yanaşı informatika fənnindən, digər mühəndislik (RK altqrupuna daxil olan) ixtisaslarının müsabiqəsində iştirak etmək istəyən abituriyentlər kimya fənnindən imtahan verəcəklər. Bu qrup daxilində bütün ixtisaslar üzrə müsabiqədə iştirak etmək istəyən abituriyentlər isə II mərhələdə riyaziyyat, fizika və kimya fənləri üzrə imtahan verdikdən sonra əlavə olaraq informatika fənnindən fərq imtahanı verəcəklər.

Beləliklə, abituriyentlər ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı I ixtisas qrupu üzrə elektron ərizə doldurarkən, öz istəklərinə uyğun olaraq ərizələrində təhsil almaq istədikləri ixtisas və yaxud ixtisaslara uyğun olan iki altqrupdan birini, yaxud hər iki altqrupu seçmək imkanına malik olacaqlar.

| I qrup | |
|---|---|
| **RK altqrupu** | **Rİ altqrupu** |
| **I mərhələ (cari ilin məzunları üçün – buraxılış imtahanı)** | |
| **Azərbaycan (rus) dili –100 bal** | |
| **Riyaziyyat –100 bal** | |
| **Xarici dil –100 bal** | |
| **II mərhələ** | |
| **Riyaziyyat –150 bal** | |
| **Fizika –150 bal** | |
| **Kimya –100 bal** | **İnformatika –100 bal** |
| **Ümumi** | |
| **700 bal** | **700 bal** |

### Riyaziyyat – kimya (RK) altqrupuna daxil olan ixtisasların siyahısı

Fizika müəllimliyi
Riyaziyyat müəllimliyi
Texnologiya müəllimliyi
Fizika
Geologiya
Mexanika
Riyaziyyat
Aerokosmik mühəndislik
Aqromühəndislik
Aviasiya təhlükəsizliyi mühəndisliyi
Cihaz mühəndisliyi
Dəniz naviqasiyası mühəndisliyi
Ekologiya mühəndisliyi
Elektrik və elektronika mühəndisliyi
Energetika mühəndisliyi
Gəmi energetik qurğularının istismarı mühəndisliyi
Gəmiqayırma və gəmi təmiri mühəndisliyi
Geologiya və geofizika mühəndisliyi
Geomatika və geodeziya mühəndisliyi
Hava nəqliyyatının hərəkətinin təşkili
Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi
İnşaat mühəndisliyi
Kimya mühəndisliyi
Kommunikasiya sistemləri mühəndisliyi
Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi
Maşın mühəndisliyi
Materiallar mühəndisliyi
Mədən mühəndisliyi
Meliorasiya mühəndisliyi
Memarlıq*
Metallurgiya mühəndisliyi
Mexanika mühəndisliyi
Mühəndis fizikası
Neft- qaz mühəndisliyi
Nəqliyyat mühəndisliyi
Nəqliyyat tikintisi mühəndisliyi
Qida mühəndisliyi
Radiotexnika və telekommunikasiya mühəndisliyi
Şəhərsalma
Sənaye mühəndisliyi
Uçuş mühəndisliyi
Yanğın təhlükəsizliyi mühəndisliyi
Aqronomluq
Balıqçılıq
Meşəçilik
Şərabçılıq
Torpaqşünaslıq və aqrokimya
Yerquruluşu və daşınmaz əmlakın kadastrı
Zoomühəndislik
Hərbi kompozisiya materialları mühəndisliyi
Hərbi rabitə vasitələri mühəndisliyi
Optotexnika mühəndisliyi
Pirotexniki və partladıcı vasitələr mühəndisliyi
Sərhəd təhlükəsizliyi və idarəetmə
Silah və silah sistemləri mühəndisliyi

### Riyaziyyat – informatika (Rİ) altqrupuna daxil olan ixtisasların siyahısı

İnformatika müəllimliyi
Riyaziyyat və informatika müəllimliyi
Kompüter elmləri
İnformasiya təhlükəsizliyi
İnformasiya texnologiyaları
Kompüter mühəndisliyi
Mexatronika və robototexnika mühəndisliyi
Proseslərin avtomatlaşdırılması mühəndisliyi
Sistemlər mühəndisliyi

* Memarlıq ixtisasına qəbul olmaq istəyənlər xüsusi qabiliyyət imtahanı verməlidirlər.

## Ali təhsilin bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulu üzrə 2023-cü ildə keçirilməsi nəzərdə tutulan imtahanların qrafiki

Magistratura səviyyəsinə qəbul imtahanı (I cəhd) - **19 fevral**
Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı I zona – **5 mart**
Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı II zona- **12 mart**

Əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı – **2 aprel**

Müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı (11 illik) – **2 aprel**

Qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı (11 illik) – **2 aprel**

Mart ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin XI sinif şagirdləri üçün buraxılış imtahanı – **2 aprel**

Eksternat qaydasında XI sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı – **2 aprel**

Azərbaycan dili imtahanı (dövlət dili kimi, 9 və 11-ci sinif, cari və əvvəlki illərin məzunları üçün (1-ci cəhd) – **7 may**

Qəbul imtahanı III ixtisas qrupu üzrə (1-ci cəhd) - **20 may**
Qəbul imtahanı II ixtisas qrupu üzrə (1-ci cəhd) - **21 may**

III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan - **21 may**

I qrup üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün informatika fənni üzrə əlavə imtahan - **3 iyun**

Qəbul imtahanı IV ixtisas qrupu üzrə (1-ci cəhd) - **3 iyun**
Qəbul imtahanı I ixtisas qrupu üzrə (1-ci cəhd) - **4 iyun**
Magistratura səviyyəsinə qəbul imtahanı (2-ci cəhd) - **11 iyun**

Azərbaycan dili imtahanı (dövlət dili kimi, 9 və 11-ci sinif, cari və əvvəlki il məzunları üçün (2-ci cəhd)) - **18 iyun**

Qəbul imtahanı III ixtisas qrupu üzrə (2-ci cəhd) - **8 iyul**
Qəbul imtahanı II ixtisas qrupu üzrə (2-ci cəhd) - **9 iyul**

III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan - **9 iyul**

Qəbul imtahanı I ixtisas qrupu üzrə (2-ci cəhd) - **22 iyul**
Qəbul imtahanı IV ixtisas qrupu üzrə (2-ci cəhd) - **23 iyul**

I qrup üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün informatika fənni üzrə əlavə imtahan - **23 iyul**



**Fərid Eldəniz oğlu Məmmədov**
**DOST Agentliyinin İdarə Heyətinin sədri**

**1997, Bank işinin təşkili, bakalavriat**
**1999, Beynəlxalq iqtisadi münasibətlər, magistratura**
1977-ci ildə Bakı şəhərində anadan olub. 1997-ci ildə Azərbaycan Universitetinin Bank işinin təşkili ixtisası üzrə bakalavr, 1999-cu ildə Azərbaycan Universitetinin Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə magistratura səviyyəsini fərqlənmə diplomları ilə bitirib.
2012-2014-cü illərdə Avstriyanın Vyana İqtisadiyyat Universitetinin İdarəçilik Akademiyasında Layihələrin və proseslərin idarə edilməsi ixtisası üzrə magistratura səviyyəsində təhsil alıb.
Müxtəlif dövlət orqanlarında, o cümlədən mərkəzi icra hakimiyyəti orqanlarında, özəl sektorda, habelə tanınmış xarici şirkətlərdə ekspert və rəhbər vəzifələrdə çalışıb, eyni zamanda bir sıra beynəlxalq layihələrin eksperti, layihə koordinatoru və meneceri olub.
13 dekabr 2018-ci il tarixdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib.
Evlidir, iki övladı var.



**Asif Hilal Oğlu Əbdüləzimov**
**Azərbaycan Respublikasının**
**Qida Təhlükəsizliyi Agentliyi**
**Hüquq, kadr və icraya nəzarət şöbəsi**
**Kargüzarlıq sektorunun müdiri**

**2006, Hüquqşünaslıq, bakalavriat**
2000-ci ildən başlayaraq dövlət orqanlarında çalışır. 2000 - 2013-cü illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Nazirliyin "Yeni Həyat" qəzetinin məsul katibi, Aparatın Ümumi şöbəsinin müdir müavini, Sənədlərlə iş sektorunun müdiri, 2013 - 2016-cı illərdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyində Aparatın Hüquq-müqavilə və kadrlar şöbəsinin Hüquqi təminat sektorunun baş məsləhətçisi, 2016-2018-ci illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətində xidmətin Hüquq, kadr və kargüzarlığın təşkili şöbəsinin müdir müavini, Kadrlarla iş və hüquq sektorunun müdiri vəzifələrində işləyib.
2018-ci ildən indiyədək Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində Aparatın Hüquq, kadr və icraya nəzarət şöbəsinin Kargüzarlıq sektoruna rəhbərlik edir. Agentliyin Kollegiyasının məsul katibi, Apellyasiya Şurasının Katibliyinin rəhbəridir. "Dövlət qulluğunun kiçik müşaviri" ixtisas dərəcəsi var. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinin təltif edilməsi haqqında" 13 iyun 2019-cu il tarixli 1245 nömrəli Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olunub.




# "İpək yolu" elmi jurnalı

1997-ci ildə təsis olunan "İpək yolu" elmi jurnalı iqtisad və filologiya elmlərinə aid Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.

Bundan əlavə jurnal Index Copernicus, E-library - РИНЦ (Rusiya), Academic Keys (USA), ResearchBib - Academic Resource Index (Japan), Scientific Indexing Services - SIS (USA), Directory of Research Journals Indexing (India), Advanced Science Index - ASI (Germany), Root Indexing - Journal Abstracting and Indexing Service (India), Eurasian Scientific Journal Index - ESJI (Russia), Science Library Index (Australia), JI Factor (USA) beynəlxalq indeksləmə bazalarına da daxil edilib.

İldə 4 dəfə nəşr olunan jurnalın hər il bir nömrəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq ölkəmizin görkəmli şəxsiyyətlərinin yubileyi və ya əlamətdar hadisələrin ildönümünə həsr olunub.

AZƏRBAYCAN UNİVERSİTETİ

## Gələcəyini bu gün seç!







## 6 AYLIQ İCMAL JURNALI

Ünvan: AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71

Tel.: (+994 12) 431 41 12/13/16
office@au.edu.az
www.au.edu.az